**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycanda davamlı inkişafın təmin edilməsində maliyyə siyasətinin rolu” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Sadıqova Pərvin İmran**

**Bakı – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİBEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

i.ü.f.d., dos. Əhmədov F.S

___________________________

**“___” ____________ 2019-cu il**

**“Azərbaycanda davamlı inkişafın təmin edilməsində maliyyə siyasətinin rolu”**

**mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060403 – Maliyyə

**İxtisaslaşma:** Maliyyə Menecmenti

**Qrup: 640**

**Magistrant**
Sadıqova Pərvin İmran

_____________________

**Elmi rəhbər**
i.e.d., prof. Manafov Qabil Nadir

_________________________

**Proqram rəhbəri**
i.e.n., dos. Seyfullayev İ.Z

_____________________

**Kafedra müdiri**
i.e.d., prof Kəlbiyev Y.A

_________________________

**BAKI - 2019**

## Summary

**Relevance of the research**

**The state plays a significant role in providing sustainable development. Accordingly, it determines the strategy of the main directions of sustainable development, its method of operation, ways and means of acquisition of economic advances.**

**Goal and objectives of the research**

**The concept is built upon 3 fundamental principles of sustainable development – economic growth, social progress and environmental sustainability and especially highlights the importance of a holistic approach in order to eliminate current barriers to development. The research methods used**

**While writing the research paper a lot of methods were used. Among them the methods of synthesis, analysis, as well as deduction and induction, at the same time the method of comparative analysis were used.**

**Information base of the research**

**Theoretical sources of the dissertation consist of research papers of academic economists of Azerbaijan and foreign countries, resolutions and programs.**

**Research limitations**

**The importance of import and the rise in the prices of imported goods in the development of our country's industry, the price level of local products and from a technological perspective the low level of competitive ability and in this respect the low level of competitive ability on the domestic and foreign markets.**

**The results of the research**

**From this perspective it is very relevant to research financial stability of national economy and principles of providing sustainable development under present-day conditions.**

**Scientific-practical significance of the results**

**Accordingly, the higher financial support for reforms implemented in any sector, the higher probability of success in the same sector is.**

**Key words**

**sustainable development, financial policy, financial system.**

## İxtisarlar və işarələr

**İKT –** İnformasiya və Kommunikasiya Texnologiyaları

**ÜDM –** Ümumi Daxili Məhsul

## Mündəricat


**Giriş.......................................................................................................... 6**

**FƏSİL 1. Davamlı İnkişafın Nəzəri-Metodoloji Əsasları.....................................10**

1.1. Davamlı inkişafın mahiyyəti və onun konseptual əsasları..........................10

1.2. Davamlı inkişafın əsas xüsusiyyətləri və göstəriciləri...............................15

1.3. Davamlı inkişaf və maliyyə siyasətinin qarşılıqlı əlaqəsi..........................21

**FƏSİL 2. Azərbaycanda Davamlı İnkişafa Keçidin Təmin Edilməsi Baxımından Maliyyə Sisteminin və Maliyyə Siyasətinin Müasir Vəziyyəti və Onun Qiymətləndirilməsi...........................................................................ş...25**

2.1. Maliyyə sistemi və onun strukturu.......................................................... 25

2.2. Azərbaycanda maliyyə siyasətinin məzmunu və vəzifələri .......................34

2.3. Müasir dövrdə maliyyə siyasətinin xüsusiyyətləri və problemləri .............43

**FƏSİL 3. Müasir Dövrdə Azərbaycanda Davamlı İnkişafın Təmin Edilməsi Aspektivdə Maliyyə Siyasətinin Təkmilləşdirilməsinin Əsas İstiqamətləri.....................................................................................50**

3.1. Büdcə-vergi siyasəti və onun təkmilləşdirilməsi perspektivləri...............50

3.2. Bank-kredit siyasəti və onun təkmilləşdirilməsi yolları............................58

**Nəticə və təkliflər...........................................................................63**

**İstifadə edilmiş ədəbiyyat...............................................................66**

Cədvəllərin siyahısı.......................................................................69

Şəkillərin siyahısı..........................................................................70

# GİRİŞ

## Mövzunun aktuallığı

Hər bir ölkənin iqtisadi inkişafı onun davamlı inkişafının təmin edilməsinin mühim şərtidir. Bu səbəbdən, ölkəmizinin sürətli inkişafının hakim olduğu dövrdə ölkənin sosial və iqtisadi inkişafı iqtisadiyyatın gələcəkdə inkişafının prioritetlərini məyyən etmişdir. Ona görə də ölkə sosial-iqtisadi göstəriciləri müəyyən edir, bu yöndə həmin göstəricilərin stimullaşdırılması, təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görür. Eyni zamanda bu göstəricilərə təsir edən amillər təhlil olunur və bu yöndə müvafiq islahatlar keçirdir. Hazıkı dövrdə iqtisadi inkişaf konsepsiyası bütün ölkələr tərəfindən qəbul olunur və konsepsiyaya uyğun olaraq siyasət yürüdürlər. Davamlı inkişaf prinsipləri biznesdə, həmçinin praktikada geniş istifadə olunur.Konsepsiyanın başında 3 əsas prinsip durur. Bunlar aşağıdakılardır;

- İqtisadi artım;
- Sosial irəliləyişlər;
- Vahid yanaşma.

Araşdırmalar göstərir ki, davamlı inkişafın təmin edilməsi baxımından ölkədə aparılan maliyyə siyasəti mühim əhəmiyyət kəsb edir. Bu səbəbdən müasir dövrə maliyyə sabitliyinin, dayanıqlı və davamlı inkişafının təminatı baxımından əsas məqsədlərdən biridir. Bu yöndə atılan müsbət adımlar ölkənin iqtisadiyyatda mövqeyini təyin edə biləcək əsas adımlardır. Keçirilən iqtisadi islahatlar, düzgün maliyyə siyasəti həm də ölkələrin stabil iqtisadiyyatının, davamlı inkişafının təminatçısıdır. Bu səbəbdən dissertasiya işinin bu yöndə tədqiqi aktual məsələdir.

## Problemin qoyuluşu və öyrənilmə səviyyəsi

Ölkədə aparılan siyasətin iqtisadi dinamikadakı rolu, onun mahiyyəti, vəzifələri və funksiyaları, aparılan iqtisadi islahatların təsir istiqaməti, əhəmiyyəti və s. təcrübi

məsələlər və nəzəri-metotoloji əsaslar xarici və Azərbaycan alimlərinin, klassik iqtisadçıların tədqiqat əsərlərində araşdırılmışdır.Davamlı inkişafa təsir edən məsələlərə dair tədqiqatlara azərbaycan iqtisadcılarının, eyni zamanda alimlərinin araşdırmalarında rast gəlmək olur. Belə ki davamlı inkişafın Əsas göstəricilərinə Y.A.Kəlbiyev,D.Bağırov,İ.Səfərov,İ.Hüseynova,Ə.Ələkbərova,N.Novruzov,R.Əsgərova,E.Sadıqov,Z.İbrahimov,A.Musayev, İ.M.Rzayev və s. əsərlərində rast gəlmək olur. Həmçinin avropa iqtisad məktəbinin klassikləri olan A.Smitin,D.Rikardonun, K.Ç.Bartronun, Ç.F.Sinkinin, A.Marşalın bu sahədə aparılan çoxsaylı tədqiqatlarına da rast gəlmək olur. Bununla belə davamlı inkişafın təmin edilməsi maliyyə siyasətinin təsiri ilə bağlı məsələlər iqtisadçılarımız tərəfindən indiyədək kifayət qədər tədqiq olunmamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri**

Tədqiqatın məqsədi ölkənin davamlı inkişafının təmin edilməsində maliyyə siyasətinin rolunun müəyyən edilməsi, maliyyə siyasətinin təkmilləşdirilməsi üzrə təklif və tövsiyyələri hazırlanmasından ibarətdir. Eyni zamanda davamlı iqtisadi və sosial inkişaf üçün zəruri olan məsələlərin tədqiq olunmasından, təcrübi cəhətdən reallaşdırılması mümkün olan həmçinin, elmi cəhətdən əsaslandırılmış və davamlı inkişafa müsbət təsir edə biləcək təkliflər göstərilmişdir.

Qoyulmuş məqsədə müvafiq olaraq magistr dissertasiyasının qarşısında aşağıdakı vəzifələr durur:

- Davamlı iqtisadi inkişaf haqqında konseptual yanaşmaları araşdırmaq və ümumilləşdirmək;
- Davamlı inkişafın göstəricilərini və təmin edilməsi amillərini müəyyənləşdirək;
- Davamlı inkişafın təmin edilməsində maliyyə siyasətinin rolunu açıb göstərmək;
- Müasir dövrdə Azərbaycanda maliyyə siyasətinin vəziyyətini təhlil etmək, onun səmərələşdirilməsinin istiqamətlərini aşkarlamaq;

- Davamlı inkişaf baxımından maliyyə siyasətinin təkmilləşdirilməsi ilə bağlı təklif və tövsiyyələr vermək.

**Tədqiqatın obyekti və predmeti**

Tədqiqatın obyektini Azərbaycanın maliyyə sistemi və onun strukturu habelə müasir dövrdə həyata keçirilən maliyyə siyasəti təşkil edir. Tədqiqatın predmetini isə müasir dövrdə davamlı inkişafa keçid baxımından maliyyə siyasətinin reallaşdırılması ilə bağlı məsələlər təşkil edir.

**Tədqiqat metodları**

Tədqiqat işinin yazılmasında bir çox metodlardan istifadə olunub. Bu medodlar əsasən sintez, analız , eyni zamanda deduksiya və induksiya, bununla bərabər müqayisəli təhlil metodlarından da istifadə olunub.

Analiz metodu vasitəsi ilə dissertasiya mövzusu fəsillərə bölünüb. Növbəti mərhələdə isə sintez metodundan istifadə edilmişdir. Bu metod vasitəsi ilə ayrı-ayrı aparılmış təhlillər ümumiləşdirilmişdir. Növbəti metod induksiya metlodu adlanır ki, bu metod vasitəsi ilə də dissertasiya işinin mövzusuna uyğun iqtisadi faktlar müəyyən olunmuşdur. Həmin müəyyən edilmiş iqtisadi faktlar əsasında nəzəri ümumiləşdirilmələr aparılmış, eyni zamanda da nəticə və təkliflərin müəyyənləşdirilməsində deduksiya metodundan istifadə edilmişdir. Müqayisəli təhlil metodunnan da dissertasiya işində istifadə olunmuşdur.Belə ki, Dissertasiya işinin ayrı ayrı paraqaraflarında davamlı inkişafa təsir edən göstəricilər müqayisə edilmişdir.

**Tədqiqatın informasiya bazası**

Dissertasiyanın nəzəri mənbələrini Azərbaycanın və xarici ölkələrin iqtisadcı alimlərinin elmi əsərlərin , eyni zamanda Azərbacan dövlətinin müvafiq qanunvericilik aktları, normativ sənədləri, qərarları, proqramları təşkil edir. Eyni zamanda Azəbaycan Respublikası Statistika Komitəsinin illik məcmuələrindən istifadə edilib. Dissertasiya işinin hazırlanmasında təkcə elmi arxiv mənbələrindən

deyil, həm də gündəlik informasiya mənbələrinə, gündəlik faktlara, internet resurslarına müraciət edilmişdir.

**Tədqiqat nəticəsində əldə edilən elmi-praktiki nəticələr**

Ölkənin iqtisadiyyatının davamlı və eyni zamanda dayanıqlı olması üçün onu əhatə edən struktur elementlərinin hər biri ayrı-ayrılıqda təhlil olunmalı, hər bir elementin iqtisadi inkişafa təsiri ilə bir yerdə rolu da müəyyənləşdirilməlidir. Stabil iqtisadi inkişafı təmin edə biləcək səmərəli maliyyə siyasəti aparılmalı, rəqabətə davamlı maliyyə sistemi qurulmalıdır. Maliyyə-bank sisteminin və maliyyə bazarının dinamikliyinə şərait yaradan infrastruktur yaradılmalıdır. Davamlı inkişafı təmin edə biləcək göstəricilərin fəaliyyəti ilə birgə maliyyə sisteminin fəaliyyətinin üzərində nəzarət mexanizmi də təkmilləşdirilməlidir.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti**

Dissertasiyada işində aparırılan tədqiqatın yekununda ümumiləşdirilən nəzəri-konseptual əsaslar, irəli sürülən tövsiyələr ölkələrin davamlı iqtisadi və sosial inkişafının təşkili, ölkə iqtisadiyyatının bazar standartlarına uyğun şəkildə qurulmasına, büdcə-vergi siyasətinin, eyni zamanda pul-kredit siyasətinin düzgün qurulmasına şərait yarada bilər. Eyni zamanda, dissertasiya işindəki ümümi fikirlər bakalavriat səviyyəsində bir çox fənləruin tədrisində geniş tədbiq edilə bilər.

**Dissertasiya işinin strukturu və həcmi**

Dissertasiya işi 3 fəsil , 8 paraqrafda ibarətdir. Dissertasiya işinin yazılmasında 32 ədəbiyyat siyahısından istifadə olunub.

# Fəsil I Davamlı İnkişafın Nəzəri-Metodoloji Əsasları

## 1.1 Davamlı İnkişafın mahiyyəti və onun konseptual əsasları

Dünya əhalisinin artması ilə birlikdə ölkələrin inkişaf istiqamətlərindəki addımları, qlobal dünya üzərində bir sıra müsbət cəhətlərlə yanaşı gözlə görülə biləcək dərəcədə mənfi nəticələr də ortaya çıxarmışdır. Bu baxımdan həmin mənfi cəhətlərdən olan ətraf mühitin çirklənməsinin artması, inkişaf konsepsiyasına yeni bir yanaşmaya ehtiyac yaratdı.

Sənaye inqilabından sonra ətraf mühit problemləri ekoloji problemlərin yaranmasına gətirib çıxardı. Planetin mövcud qaynaqlarının gələcək üçün kifayət etməyəcəyi bir çox elmi araşdırmalarla sübut edilir. Problemin həllinə yönəlmiş konstruktiv addımlardan biri də davamlı inkişafa keçiddir. Ölkələrin əsas məqsədi ölkənin ekoloji və sosial-iqtisadi inkişafının qorunub saxlamaqdır.

XX əsrdən artıq başlayaraq insanlar davamlı inkişafa keçid haqqında bir çox konsepsiyalar yaratmışlar.Hal-hazirki dövrdə ən tez-tez tədbiq olunan və dünya birliyi tərəfində bəyənilən konsepsiyalardan biri də davamlı inkişaf konsepsiyasıdır. XX əsrin ikinci yarısından əvvəlki inkişaf konsepsiyası demək olar ki, bugünkü forma ilə eyni idi.XIX VƏ XX əsrin əvvələrində dünyaya hakim olam imperiya və müstəmləkəçiliyin güc strukturu bu günün iqtisadi və sosial inkişafının təməlini qoydu. Avropanın inkişaf etmiş bölgələrində, Şimali Amerika və Yaponiyada iqtisadi inkişaf yüksək olsa da, bərabərlik və sosial ədalət məsələlərinə daha az diqqət yetirilirdi. Böhranın gətirdiyi yoxsulluq və zəiflik göstəricilər Avropa və Amerika çox da təsir etmədi. Bu da insanların ehtiyaclarını qarşılamaq potensialının hələ də davam etdiyini, yəni inkişaf siyasətinin hələ də davam edə biləcəyini göstərdi. İkinci dünya muharibəsindən sonra konsepsiyalar və siyasətlər dəyişdirilməyə başlandı. Əksəriyyət üçün sosial və iqtisadi inkişafın təmin edilməsi hökümətlərin əsas vəzifəsinə çevrildi. İqtisadi inkişaf siyasətinin əsas hədəfi insanları davamlı şəkildə daima mal və xidmətnən təmin etməkdir. İkinci dünya muharibəsindən sonra qurulan Beynəlxalq

Valyuta Fondu, Dünya Bankı və Birləşmiş Millətlər Təşkilatı məhz bu məqsəd üçün yaranmışdır. 1980-ci illərdən sonra əsas hədəf ticarətin iqtisadiyyatda liberallaşdırılması, çatışmazlıqların aradan qaldırılması, səmərəsiz ictimai təşkilatların ləğvi və struktur tənzimləmələrin həyata keçirilməsi idi. Neoklasik iqtisadi nəzəriyyəyə görə, davamlılıq firavanlığı maksimum dərəcədə artırır. Bu konsepsiya istehlakdan əldə edilən faydanı maksimuma çatdırılmasını sadələşdirmişdir. Standart iqtisadi nəzəriyyəyə görə, resursların effektiv olaraq bölüşdürülməsi istehlakdan alınan faydalılığı artırmağa xeyli təsir edir. (Rzayev İ.M., 2010: s. 32-56)

Bir çox qəbul edilmiş tərifi olmasına baxmayaraq davamlı inkişaf anlayışını tək bir cümlə ilə izah etmək çətindir. Bəzi iqtisadçılar davamlı inkişafın müxtəlif təriflərini tərtib etmişdir. Bunlardan ikisi aşağıdakılardır:

Birincisi, 1987-ci ildə, Birləşmiş Millətlər Təşkilatının Brundtland Hesabatına əsasən davamlı inkişaf bugünkü ehtiyacları qarşılaya bilmək üçün və gələcək nəsillərin ehtiyaclarını qarşılamaq imkanlarıyla kompromis təşkil etməyən inkişafdır.

İkinci tərif 1989-cu ildə Dünya Bankı Hesabatında verilmişdir. Bu hesabata görə, davamlı inkişafın insanlar arasında bərabərliyin bir ölçüsü olduğu göstərilmişdir. Bu səbəblə, davamlı inkişaf adam başına azalmayan fayda olaraq qiymətləndirilir. Tədqiqatlar göstərir ki, davamlı inkişaf terminini ilk dəfə 1987–ci ildə Brutland komissiyası tərəfindən işlənilmişdir. Davamlı inkişaf və davamlı iqtisadi inkişaf terminləri bir birinə demək olarki yaxın terminlərdir. Əslində ikisi də eyni mənaya gəlir. Bu səbəbdən davamlı inkişaf bir-biri ilə bağlı olan iki mühüm amilə əsaslanır. Ən əsas amillərdən biri təlabat amilidir ki, yoxsul təbəqənin müvcudluğu üçün zəruriyyət daşıyır. İkinci amil isə məhdudlaşdırma amilidir.Əsasən bu amil texnologiyanın hazirki vəziyyətinə və cəmiyyətin təşkilinə əsaslanır. Burdan belə aydın olur ki, davamlı inkişafın əsas vəzifəsi cəmiyyətin istək və təlabatını fasiləsiz olaraq təmin etməkdir. İqtisad elminin də elə başlıca əsas məqsədi məhdud resurslarla

cəmiyyətin sonsuz artan tələbatını ödəməkdir və burdan da göründüyü kimi, həqiqətən, davamlı inkişafla davamlı iqtisadi inkişaf eyni məna kəsb edir və ikisinin də məqsədi eynidi. (Şəkərəliyev A.Ş., 2009: s. 120-198)

Elmi–texniki tərəqqinin təbiət və cəmiyyət arasında yaratdığı neqativ nəticələrin qarşısına almaq və bunun həll yolunun araşdırılmasına ilk dəfə İtaliya alimi A.Peççei tərəfindən 1968 –ci ildə yaradılmış Roma kulubu tərəfindən araşdırılmağa başlandı. Klubun ən aktiv üzvlərindən biri də ABŞ-ın Massaçuset Texnologiya institutunu professoru C.Foresfer idi. Onun "Dünya dinamikası" kitabında ərzaq problemi, əhalinin artımı, ətraf və təbii mühitin çirklənməsi, tükənən təbii resurslardan istifadənin həddinnən artıq çoxalması, kapital qoyuluşu və s. məsələlərin riyazi modelləşdirilməsini göstərilmişdir. Klubun digər bir üzvi Y.Tinbergen "Beynəlxalq qaydaların yenidən qurulması" adlı məruzə hazırlamışdı. Bu məruzədə maddi rifahın yaxşılaşdırılması, enerjidən qənaətlə istifadə, məişət və istehsal tullantılarının zərərsizləşdirilməsi, təkrar istehsal və digər məsələlərə geniş yer verilmişdir. Davamli inkişaf konsepsiyası hazırda dünyada ən çox bəyənilən və istifadə olunan konsepsiyalardan biridir

Davamlılığın sosial komponenti insanlara yönəldilmişdir və sosial və mədəni sistemlərin sabitliyini, o cümlədən insanlar arasında dağıdıcı münaqişələrin sayının azaldılmasına yönəldilmişdir. Bu yanaşmanın vacib cəhəti faydaların ədalətli mübadiləsi deməkdir. Dünya Bankı tərəfindən hazırlanmış davamlılığın əsas göstəricisi "ölkədə saxlanılan əmanətlərin real dərəcələri (nisbəti)" və ya "investisiyanın real dərəcələri" dir. Yer Xartiyası Sənədi ümumi insan hədəflərinin və ümumi dəyərlərin inkişaf etdirilməsinə yönəldilmiş altı illik beynəlxalq dialoq nəticəsində yaranmışdır. Mülki cəmiyyətin təşəbbüsü ilə hazırlanmış və 2000-ci ilin mart ayında Parisdə YUNESKO-nun qərargahında Yer Xartiyası Komissiyasının iclasında rəsmən qəbul edilmişdir. Yer Xartiyasının missiyası bütün həyat cəmiyyətinə hörmət və qayğı, ətraf mühitin bütövlüyü prinsipləri, universal insan

hüquqları, mədəni müxtəlifliyə hörmət, iqtisadi ədalət, demokratiya və insan hüquqlarının qorunmasını əhatə edən ümumi etik prinsiplərə əsaslanan dünya ictimaiyyətinin formalaşmasını təşviq etməkdir.

Davamlı inkişaf konsepsiyası regional, qlobal ,həm də beynəlxalq miqyasda iqtisadi inkişafın sabitliyinin qorunması və təmin edilməsi istiqamətində həyata keçirilən ən başlıca strategiyalardan biridir. Bir çox ədəbiyyatlarda davamlı inkişaf konsepsiyası dedikdə təbii resurslardan səmərəli şəkildə istifadə etmək və ətraf mühitin qorunması kimi başa düşülür. Ətraf mühitin qorunması dedikdə təbiət və cəmiyyətin qarşılıqlı münasibətindən formalaşaraq özü-özünü tənzimləyən davamlı iqtisadi inkişaf başa düşülür. Müasir davamlı inkişaf konsepsiyasını İnkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələr əsas inkişaf strategiyası kimi qəbul etmişlər. Buna görə də bu ölkələr qarşılarına qoyduqları məqsədə nail olmaq üçün bu konsepsiyaya daha həssaslıqla yanaşmışlar. Cəmiyyətin sosial tələblərini, sosial problemlərini həll edərək davamlı inkişaf təmin olunur. Bu səbəbdən sosial aspektlər davamlı inkişafa nail olmağın əsas tərkib hissəsidir. Ölkənin soisal siyasəti dedikdə cəmiyyətin sosial problemlərini araşdıraraq bu problemlərin həllinə yönəlmiş fəaliyyət istiqamətləri başa düşülür. Bu strategiyanın əsas məqsədi insanların maddi və mənəvi təlabatlarını ödəyərək sosial inkişafa nail olmaqdır. Davamlı inkişafın əsas göstəricilərindən biri yoxsulluq və işsizlikdir . Tədqiqatlar göstərir ki, sosial problem başqa bir problemin yaradıcısı və təkanvericisidir. Israfçılıqla istifadə olunan təbii və iqtisadi resurslardan istifadə və bütün dünyada qlobal dəyişikliyə gətirib çıxaran sürətli inkişaf nəticəsində gələcək nəsillərin bu ehtiyatlardan səmərəli şəkildə istifadə etməyə sövq edən Davamlı İnkişaf konsepsiyası meydana gəlmişdir. Davamlı inkişaf dedikdə elə inkişaf başa düşülür ki, indiki nəsillərin tələbini ödəyir, lakin gələcək nəsillərin tələbini ödənilməsini təhlükə altına almır.

Konsepsiyanın yaranmasında BMT-nin "Rio Bəyannaməsi" , "XXI əsrin gündəliyi" , "Vyana Bəyannaməsi", "Pekin Bəyannaməsi" və digər sənədlər mühim rol oynayır.

"Rio Bəyannaməsi" 1992 –ci ildə Rio konfransında qəbul olunmuşdur. Bu bəyannamədə əsas məqsəd sırf ətraf mühitin mühafizəsi deyil, eyni zamanda sosial-iqtisadi və ekoloji istiqamətləri müəyyənləşdirməkdir.

"XXI əsr gündəliyi" Bu sənəd sosial, iqtisadi və ekoloji aspektləri özündə əhatə edir .4 bölmə 38 paraqrafdan ibarət olan sənəddir. Bu sənəddə fərqli ölkələrdə Davamlı İnkişaf üzrə Milli şuranın yaradılmasının vacibliyini qeyd etmişlər.

"Vyana Bəyannaməsi"–ində insan hüquqlarının təmin edilməsinə geniş yer verilir. Bu səbəbdən konfrans " İnsan hüquqları üzrə BMT-nin Vyana konfransı" adlanır.

"Əhali və İnkişaf üzrə Fəaliyyət Proqramı" Misirin paytaxtı Qahirə şəhərində 1994-cü il tarixində keçirilmiş konfransda qəbul edilmişdir.

"Sosial İnkişaf üzrə Kopenhagen Bəyannaməsi" 1995 –ci ildə Kopenhagendə qəbul edilmişdir.

"Pekin Bəyannaməsi" 1995-ci ildə Pekində keçirilən konfransda qəbul olunmuşdur. Bu konfrans sırf gender bərabərliyinə və Davamlı İnkişafa həsr olunmuşdur.

"Yaşayış məskənləri üzrə İstanbul Bəyannaməsi" 1995 –ci ildə İstanbul konfransında qəbul olunmuşdur. Bu konfrans yaşayış məskənlərinin davamlı inkişafına həsr olunmuşdur. Bu konfransa daha çox "Habit-2" konfransı deyirlər. Habit-2 deyilməsinin əsas səbəbi də ingiliscədən tərcümədə yaşayış məskəni mənasını verməsidir.

"Siyasi Bəyannamə"–Yohannesburq Samitində qəbul edilmişdir. Bu konfransda təbii resursların mühafizəsi və onlardan səmərəli istifadə, beynəlxalq, milli və regional səviyyədə Davamlı İnkişafın möhkəmləndirilməsi, qloballaşma şəraitində davamlı inkişaf və s. bununla bağlı məsələlər müzakirəyə qoyulmuşdur.

“Minilliyin Bəyannaməsi” – 2000-ci ildə dünyanın 150 ölkəsinin, eyni zamanda Azərbaycanın da iştirak etdiyi Minilliyin Forumunda qəbul olunmuşdur. Minilliyin inkişaf məqsədləri bu bəyannamədə öz əksini tapmışdır. (Rzayev İ.M., 2010:s.120-135)

## 1.2 Davamlı inkişafın əsas xüsusiyyətləri və göstəriciləri

Əvəlki paraqrafda göstərildiyi kimi, davamlı İnkişaf konsepsiyası ekoloji və sosial-iqtisadi inkişafın qarşılıqlı əlaqəsindən yaranan strategiyadır. Tədqiqatlardan da aydın olduğu kimi müasir dünyanin qarşılaşdığı iki əsas problem mövcuddur. Birincisi yoxsulluq, ikincisi isə təbii resursların tükənməsi təhlükəsi. Yoxsulluğu azaltmaq üçün ilk növbədə xarici borcları minumuma endirmək, ixrac yönümlü istehsalı və sahibkarlığı inkişaf etdirmək lazımdır. Təbii resursların tükənməsi təhlükəsini aradan qaldırmaq üçün isə təbii sərvətlərin qorunmasına diqqət etmək lazımdır. Təcrübə onu da göstərir ki, iqtisadiyyatda davamlı inkişaf insan kapitalının kəmiyyət və keyfiyyətindən çox aslıdır. Bu gün iqtisadiyyatda davamlı inkişafı təmin etmək üçün təkrar istehsal prosesi və istehlak mərhələsinin imkanları ilə məhdudlaşdırılmalı deyil.İstehsal mərhələsindən əvvəl hər bir ölkənin inkişafının davamlılığı elmi-tədqiqat, təcrübə konstruktor işləri mərhələsinin keyfiyyətindən, potensialından aslıdır. Çünki,ölkəyə əgər mal və xidmət daxil olursa və onu təkmilləşdirməyə yetəri qədər ixtisaslı kadr potensialı yoxdursa, bir müddət sonra həmin istehsal və xidmət sahələri öz rəqabət qabilliyətini itirəcək. Bu səbəbdən güclü ixtisaslı kadrın yaradılmasında, habelə yeni biliklərin yaradılmasında Ali təhsilinin rolu olduqca böyükdür. Milli iqtisadiyyatın inkişafında elmin rolunun artırılmasını nəzərə alaraq bu sahəyə investisiya qoyuluşunu artırmaq lazımdır. İnsan kapitalı inkişaf elədikcə əmək məhsuldarlığı artmağa başlayır. Əmək məhsuldarlığı artdıqca ölkə iqtisadiyyatına əlavə dəyər yaratmaq imkanı genişlənir. Əmək məhsuldarlığı artdıqca iqtisadiyyatda davamlı inkişafa nail olmaq mümkündür.

Dünyanı düşündürən ən vacib problemlərdən biri də yoxsulluğun aradan qaldırılmasıdır. Çünki, yoxsulluğun azaldılması davamlı inkişafın ən böyük

göstəricilərindən biridir. Bu problemin həllinin ən başlıca məqsədi ölkədə məşğuliyyətin təmin olunması, insanların həyat şəraitini maksimum dərəcədə yaxşılaşdırmaq, ölkənin davamlı inkişafını təmin etməkdir. Davamlı inkişaf odur ki, insanların təlabatları bərabər şəkildə ödənsin. Davamlı inkişaf və yoxsulluq probleminın qarşılıqlı əlaqəsi haqqında bir çox fikirlərə bir çox alimlərin əsərlərində, eyni zamanda bir sıra beynəlxalq sənədlərin müddəalarında rast gəlmək mümkündür. Bəzi insanlar davamlı inkişafın təmin edilməsi ilə bağlı problemin siyası həllini, bəziləri isə iqtisadi həllin effektiv hesab edirlər, lakin davamlı inkişaf konsepsiyası üç amilin nəticəsində yaranmışdır. Bunlar əvvəl də qeyd etdiyim kimi, siyasi, sosial və iqtisadi amillərdir. ( Zeynalov V.Z., 2009: s.83-138)

İqtisadi, ekoloji və sosial inkişaf davamlı iqtisadi inkişafın ən vacib göstəricilərindən biridir.

İqtisadi inkişaf-İqtisadi cəhətdən davamlı sistem qurulmalıdır. Mal və xidməti davam edən prinsiplər əsasında istehsal etməliyik. Xarici borcları azaltmağa çalışmalıyıq.Kənd təsərrüfatı və sənayə istehsalının davamlılığını artırmaq üçün sektoral disbalansın qarşısını almalıyıq.

Ekoloji inkişaf: Ekoloji davamlı sistem qurulmalı, sabit qaynaq bazası, yenilənəbilən resurs bazası olmalıdır.Ətraf mühitə sərmayə funksiyaları təmin edilməlidir.

Sosial inkişaf: Sosial cəhətdən davamlı sistem, bərabərlik paylanması, səhiyyə və təhsil, gender bərabərliyi, siyasi məsuliyyət və siyasi iştirak kifayət səviyyələrə çatdırılması təmin edilməlidir. (Aliyev A.,2013: s.94-123)

Müasir dövrdə ekoloji problemlərin qarşısını almaq, eyni zamanda iqtisadi artımı ekoloji yöndən tarazlaşdırmaq dünya ölkələrinin əsas məqsədlərindən biridir. Bu səbəbdən respublikasmızda iqtisadı cəhətdən inkişafı, iqtisadi artım təbii resurslardan davamlı istifadə ilə birgə ətraf mühitin qorunub saxlanılmasını tələb edir.

Bu səbəbdən respublikamızın regionların iqtisadi inkişafından, dayanıqlı və davamlı inkişafından söhbət gedərkən, əsas nəzərə alınmalı amillərdən biri də ekoloji aspektlərdir. Azərbaycan Respublikasının beynəlxalq aləmə inteqrasiya etdiyi müddətdə ekoloji problemlərin həlli yönündə bir çox adıımlar atılmışdır. Ölkəmizdə ətraf mühitin mühafizəsi ilə bağlı çoxlu qanun, proqram və bir çox sənədlər qəbul edilir.

Tarazlı iqtisadi inkişafa nail olmağın digər bir mühim amillərindən biri də bioloji amillərin qorunub saxlanılmasıdır. Hal-hazırda bioloji müxtəlifliyin qorunması bir çox sənədlərdə öz əksin tapmışdır. Ölkənin sosial-iqtisadi inkişafına təsir edən ekoloji amillərin bir növü hesab olunan biomüxtəlifliyin qorunması ilə bağlı konvensiyaya ölkəmiz müstəqilliyinin ilk illərində qoşulmuşdur. Biomüxtəlifliyin qorunması konvensiyası 1992-ci illərdə qəbul edilmiş, bir çox ölkələr kimi Azərbaycan Respublikası da bu konvensiyanın müddəalarını qəbul etmişdir. Azərbaycan Respublikasının 1995-ci ildən bugünə kimi əsas məqsədi xususi olaraq qorunan ərazilərin inkişafına, su-bataqlıq ərazilərinin yenidən bərpasına, nəsli kəsilməkdə olan flora və faunanın qorunub saxlanılmasına və s. olmuşdur. Araşdırmalardan da aydındır ki, ölkəmiz Qafqaz ölkələri arasında, ümumiyyətlər Avropa üzrə çox zəngin biomüxtəlifliyə malikdir. Ölkəmizdə bir çox nadir bitki və heyvan növləri mövcuddur. Bir çox səbəblərdən demək olar ki, bu biomüxtəliflik daim təhlükə altındadır. Bu səbəbdən bu biomüxtəlifliyin qorunması xüsusi əhəmiyyət kəsb edir.

Davamlı inkişafın təmin olunmasında xidmət sahələrinin rolu olduqca böyükdür. Tədqiqatlar göstərir ki, son illərdə xidmət sahələrinin davamlı inkişafın təmin olunmasında payı olduqca yüksəkdir. Bunun ilk olaraq səbəbi İnsanların gəliri artdıqca xidmət sahələrinə xərclənən pulun da artmasıdır.İkinci səbəb isə İKT-nın inkişafının xidmət sahəsinin inkişafını genişləndirməsi və xidmət sahəsinin iqtisadi cəhətdən dəyərini artırmasıdır. Müşahidələr göstərir ki, XX əsrin ikinci yarısından sonra xidmət sahəsi iqtisadi sahəni üstələməyə başlamışdır. 1980–ci illərdən

başlayaraq inkişaf etməkdə olan ölkələrdə baş verən dəyişikliklər xidmət sahəsinin bazar həcmində payının xeyli artmasına gətirib çıxartmışdır. Hal-hazırki dövrdə xidmət sahəsi gəlirli sahə kimi tanınır. Məsələn, əgər Amerikanın xidmət sahəsi yetəri qədər inkişaf etməsəydi, Çin məhsul istehsalına görə dünyanın ən inkişaf etmiş və ən böyük ölkəsi sayılacaqdı. Çinin məhz xidmət sahəsinin Amerikadan aşağı olması, ən böyük iqtisadiyyata malik ölkəsi olması statusunu əlindən aldı.

Bütün sahələrdə, ən əsas da xidmət sahələrində inkişafa nail olmaq üçün, ən əsas məsələlərdən biri də ölkədə əmək ehtiyatlarının formalaşdırılmasıdır. Biznesin maliyyələşdirilməsi biznesə başlamağın ilkin şərtləndirən, amillərindən olsa da, ümumillikdə biznesin uğurlu alınması üçün ixtisaslı kadr amili önə çıxır. Ölkənin davamlı inkişafa nail olması üçün müxtəlif sahələrə uyğun ixtisaslı və təcrübəli əmək qüvvəsinə malik olmalıdır. Müşahidələr göstərir ki, əmək ehtiyatları, çox vaxt iqtisadi inkişafın tələblərinə uyğun gəlmir. Buna səbəb bir sahə üzrə kadr kifayət qədər olsa da, ona ehtiyyac olmur, amma başqa sahə də isə kadr çatışmazlığı olur. Əsasən kəmiyyət və keyfiyyət problemləri çoxdur və ən çox da bu iki xususiyyətdən keyfiyyətə önəm verilir.

Məlum məsələdir ki, istənilən sahədə yüksək inkişaf səviyyəsi təmin etmək üçün, zəruri təminatların olması vacibdir. O cümlədən, hər hansı istehsal və ya digər iqtisadi prosesin səmərəli şəkildə yekunlaşdırılması prosesinin bütün iştirakçılarının təkmilliyini tələb edir. Ona görə də, regionların sosial-iqtisadi davamlı inkişafının təmin olunması üçün infrastuktur təminatının olması vacibdir. Eyni zamanda inkişaf etmiş ölkələrə baxsaq deyə bilər ki, infrastruktur sahələrinin geninişlənməsi,iqtisadi inkişafı da sürətləndirməyə şərait yaradır. İnfrasturukturlar sosial-iqtisadi inkişafın ən vacib istiqamətlərindən biridir. İnfrastruturların genişlənməsi cəmiyyətin təkamül və eyni zamanda tələbatının normallaşmasına, eyni zamanda yüksək səviyyədə təmin olunmasına müsbət təsir göstərir. Xüsusilə yüksək sivilizasiyalı ölkələrdə, eyni

zamanda inkişaf etmiş ölkələrdə özünü daha çox təzahür etdirir, yəni daha keyfiyyətli səciyyə kəsb edir.

Tədqiqatlardan aydın olur ki, müstəqilliyin ilk illərində ölkədə infrastruktur sahələrinin formalaşdırılması sahəsində mövcud olan geriliklər tamamilə aradan qaldırılmış və son illər həyata keçirilən genişmiqyaslı infrastruktur layihələr nəticəsində milli iqtisadiyyatın bütün sahələrində müasir standartlara və tələbata uyğun olan infrastruktura formalaşmışdır. Ümumilikdə infrastruktur sahələri öz təyinatlarına görə istehsal, sosial və bazar infrastrukturu olmaqla üç qrupda təsnifləşdirmək mümkündür. İstər ölkənin ümumi iqtisadi inkişafında, istərsə də regional inkişafında mühim rol oynayan, özünəməxsus spesifik xüsusiyyətləri ilə iqtisadi inkişafın, həyata keçirilən iqtisadi proseslərin ayrılmaz tərkib hissəsinə çevrilən bazar infrastrukturları kompleks və çoxşaxəli bir sistem təşkil edir. Bu infrastruktur bazar iqtisadiyyatı sistemində xüsusi rola malikdir, ölkənin davamlı, stabil inkişafının əsas göstəricisindən biri olduğu üçün, tədqiqat obyekti kimi məhz bazar infrastruturları seçilmişdir.

Dayanıqlı inkişafı xarakterizə edən əsas göstəricilər Avropa İttifaqının Statistika Bürosu tərəfindən müəyyən olmuşdur və onlar aşağıdakılardır:

- Sosial-iqtisadi inkişaf;
- Dayanıqlı istehlak və istehsal;
- Sosial tendensiyalar;
- Demoqrafik dəyişikliklər;
- Səhiyyə;
- İqlim dəyişikliyi və enerji;
- Nəqliyatın dayanıqlı inkişafı;
- Təbii resurslar;
- Qlobal tərəfdaşlıq;
- Səmərli idarəetmə.

Bu sənədə görə sosial İqtisadi inkişaf hər adama düşən ümumi daxili məhsulun dispersiyası (bölüşdürülməsi), xalis milli gəlir, innovasiyalar, rəqabətə davamlılıq və ekoloji səmərəlilik ilə xarakterizə olunur. Hər nəfərə düşən regional ümumi daxili məhsulun (ÜDM) dispersiyası hər nəfərə düşən regional ÜDM və ölkə üzrə hər nəfərə ÜDM arasındakı mütləq fərqin orta çəkili cəmi ilə ölçülür. Ev təsərrüfatının qənaətinin artım sürəti ev təsərrüfatlarının sərəncamında qalan gəlirlərlə xərcləri arasındakı fərq üzrə müəyyənləşir.

Deyilənlərdən əlavə aşağıdakı göstəricilər də sosial-iqtisadi inkişaf göstəriciləri sırasına aid edilir:

- Resursların və tullantıların istifadəsi, istehlak modelləri, istehsal modelləri dayanıqlı istehlak və istehsal göstəricisinin əsas elementleridir;
- Monetar yoxsulluq və həyat şəraiti, əmək bazarına giriş sosial tendensiyaları yaradan göstəricilərdən biridir;
- Ümumi nəsilvermə (fertillik) əmsalı, ümumi miqrasiya əmsalı və tənzimləmə, yaşlıların gəlirləri demoqrafik dəyişikliklərə təsir edən əsas amillərdir;
- Dövlət idarəetməsi sektorunun ümumi borcu, kontekst göstəricilər dövlət maliyyəsinin dayanıqlığı təyin edən göstəricilərdir. (Hüseynov S.Y., 2003: s.35-122

Bazar münasibətləri şəraitində ölkənin tənzimləyici funksiyası genişlənərək, geniş miqyası əhatə edir. Regionların inkişafına nail olmadan, ölkə iqtisadiyyatını inkişaf etdirmək, gücləndirmək mümkün deyil. Bunu bazar iqtisadiyyatına malik ölkələrin inkişaf təcrübəsi də təsdiq edir. Belə bir uyğunsuzluğu aradan qaldırmaq üçün 2003-2018-ci illər ərzində ölkədə regionların inkişafı ilə bağlı 3 dövlət proqramı icra edilmişdir. Hazırda 2019-2023-cü illər üçün növbəti 4-cü belə dövlət proqramın həyata keçirilməsinə başlanılıb. Əvvəlki illərdə yerinə yetirilmiş 3 proqramın inkişafı əsasında regionlarda olan bir çox iqtisadi problemlər həll olunmuşdu ki, bu da davamlı inkişafın təmin edilməsi baxımından mühim əhəmiyyət kəsb edir. Deyilənlər göstərir ki, Bunu bazar iqtisadiyyatına malik ölkələrin inkişaf təcrübəsi də təsdiq edir.

Bazar iqtisadiyyatının ən əsas məqsədlərindən biri sahibkarlıq fəaliyyətini inkişaf etdirməkdir. Bu yolnan ölkələr çalışır ki, ölkənin iqtisadiyyatını inkişaf etdirsin və bununla da ölkənin maddi-sosial durumunu yaxşılaşdırsın.

Ölkəmizdə regional inkişafa xüsusilə diqqət yetirilir. Hal–hazırda uğurlu islahatların nəticəsi olaraq ölkənin kənd təsərrüfatı məhsullarının 99%-i özəl bölmələrdə istehsal edilir. Amma ölkəmizdə məşğulluqla və regionların inkişafı ilə bağlı hələ də müəyyən problemlər mövcuddur. Ölkənin infrasturuktur obyektlərinin və sənayə müəssisələrinin, bir çox xidmət sahələrinin Bakı ərazisində yerləşməsi, əvvəlki dövrlərdə regionlarda fəaliyyət göstərən müəssisələrin fəaliyyətinin dayanmasına səbəb olmuşdur. Bunun nəticəsi olaraq regionların inkişafına mənfi təsirini göstərmişdir. Məlumdur ki, ölkənin davamlı inkişafı üçün ,səmərəli dövlət tənzimləməsinin olması vacibdir.Dövlət yanlız tənzimlənmə vasitələrindən istifadə edərək ölkənin iqtisadiyyatına təsir edə bilər. Davamlı inkişafın təmin edilməsində dövlətin rolu əhəmiyyətli dərəcədə böyükdür. Belə ki, dövlət davamlı inkişafın əsas istiqamətlərinin strategiyasını, fəaliyyət taktikasını, iqtisadi uğurlara nail olmağın yol və vasitələrini müəyyən edir.

## 1.3 Davamlı inkişaf və maliyyə siyasətinin qarşılıqlı əlaqəsi

Maliyyə siyasəti dövlət gəlirlərinin və xərclərinin tənzimlənməsi, vergi sisteminin həcminin formalaşması yolu ilə dövlətin iqtisadiyyata təsiridir.

Maliyyə siyasəti iqtisadi inkişafın təmin edilməsində əhəmiyyətli təsirə malikdir. Səmərəli şəkildə həyata keçirilən maliyyə siyasəti olmadan dayanıqlı inkişafa nail olmaq çətindir. Bu baxımdan inkişaf dinamikasının hər bir mərhələsində maliyyə siyasətinin əhəmiyyəti artır. İqtisadiyyatın bütün sahələri üzrə nəticələrə maliyyə təminatı səviyyəsi birbaşa təsir göstərir. Belə ki, hər hansı bir sahədə həyata keçirilən islahatlar üzrə maliyyə təminatı nə qədər yüksək olarsa həmin sahə üzrə uğurlu nəticə əldə etmək ehtimalı da yüksək olar. (Kəlbiyev Y.A., 2005: s.18-34)

Respublikamız müstəqillik əldə etdikdən sonra sürətli iqtisadi inkişafa nail olmuşdur. İqtisadiyyatımızın müxtəlif sahələrini hər tərəfli əhatə edən layihələr həyata keçirilir. Son dövrlərdə insanların maddi rifahını yaxşılaşdırılması regionlarda investisiya cəlbediciliyinin yüksəlməsi nəticəsində davamlı iqtisadi inkişafa keçidlə bağlı yeni iş yerlərinin açılması və s. üzrə müsbət nəticələr əldə olunmuşdur. Belə bir inkişafa nail olunmasında maliyyə siyaətinin xüsusi əhəmiyyəti vardır. Maliyyə siyasəti iqtisadi inkişafda həlledici rol oynamaqla yanaşı, həm də tənzimləyici xüsusiyyətə malikdir. Belə ki, dövlət iqtisadi proseslərə müdaxilə etmək üçün tənzimləyici alət kimi maliyyə siyasətindən istifadə edir. Dövlət öz funksiyalarını həyata keçirtmək üçün maliyyəni həm tənzimləyəci, həm də stimullaşdırıcı alət kimi istifadə edir. Bütün bunlar ölkədə tarazlı və davamlı inkişafa nail olmasını təmin edir. Davamlı inkişaf istiqamətində aparılan işlər, həyata keçirilən layihələr böyük maliyyə sərfiyyatı tələb edir. Yəni məqsədlərin reallaşdırılmasında maliyyə siyasəti böyük rol oynayır. Dövlətin maliyyə siyasəti regional iqtisadi və sosial beynəlxalq münasibətləri əhatə edir. Maliyyə siyasəti milli iqtisadiyyatın inkişafında, regional iqtisadiyyatda tarazlığa nail olmanı təmin  etməli və istehsal sahələrin inkişafına təsir etməlidir. Bazar münasibətləri şəraitində maliyyə siyasətini vəzifələri daha da artır. Maliyyə fəaliyyətin düzgün təşkil olunması ölkənin iqtisadiyyatının inkişafı, stabilliyi, dayanıqlılığı deməkdir. Bu yöndə atılan müsbət addımlar ölkə iqtisadiyyatının daha da inkişaf etməsi, böhran risqinin azalması deməkdir.

Maliyyə mexanizmi maliyyə münasibətləri sistemidir. Bu sistemə maliyyə resurslarının formalaşdırılması, onların bölüşdürülməsi və istifadəsiylə bağlı olan qanunvericilik və normativ aktların sistemi daxildir. Bütün bunlar vasitəsilə büdcə təşkili, dövlət gəlirlərinin və xərclərinin müəyyənləşdirilməsi, qiymətli kağızlar bazarının idarə edilməsi təmin edilir. Maliyyə siyasətinin tərkib hissəsi olmaqla maliyyə mexanizmi maliyyənin planlaşdırılmasının və idarə olunmasının həyata keçirilməsini də özündə əks etdirir. Bazar münasibətləri şəraitində rəqabət iqtisadi

tərəqqinin mühüm amilidir. İslahatlar dövründə rəqabət mühitinin formalaşmasında iqtisadi-maliyyə mexanizminin artan rolu müşahidə olunur.

Ölkəmizdə davamlı inkişafa keçid iqtisadi proseslərin idarə olunmasını dövlət səviyyəsindən regional orqan səviyyəsinə keçməsi prosesini sürətləndirmişdir. Bu baxımdan regionlar üzrə maliyyə potensialı regional inkişaf nöqteyi nəzərindən əhəmiyyətlidir. Bildiyimiz kimi bir sıra regionlar dövlət büdcəsi hesabına maliyyələşdirilirlər. Dövlət yerli büdcələri formalaşdırmaq üçün regional hakimiyyət orqanlarına vəsaitlər ayırmaqla səhiyyə, təhsil və kommunal xidmətlər və s. üzrə maliyyələşdirməni təmin edir.

Maliyyə siyasəti daha çox bağlı olduğu əsas siyasətlərdən biri də investisiya siyasətidir. Bu baxımdan investisiya siyasəti maliyyə siyasətinin əhəmiyyətinin müəyyənləşdirilməsində mühüm yer tutur.

İnvestisiya siyasətinin əsas istiqamətləri kimi aşağıdakıları qeyd etmək olar:

- Müvafiq araşdırma aparılması ilə investisiya fəaliyyətinin maliyyələşdirilməsində prioritet sahələrin müəyyən edilməsi;
- Maliyyələşmə zamanı müəssisələrin genişlənməsi və elmi yeniliklərin təsdiqinə üstünlük verilməsi;
- Müəssisələrin əldə etdikləri vəsaitin investisiya kimi müxtəlif istiqamətlərə yönləndirilməsi sahəsində onların hüquqlarının genişləndirilməsi;
- İnvestisiyanın dövlət büdcəsi hesabına maliyyələşdirilməsinin tədricən ixtisar edilməsi və müvafiq olaraq investisiyaların tərkibində qeyri dövlət sektorunun payının artırılması.

İnvestisiya siyasətinin əhəmiyyətini nəzərə alan Azərbaycan hökuməti vəsaitlərin səmərəli yerləşdirilməsi və düzgün istiqamətləndirilməsi məqsədi ilə müxtəlif fondların yaradılması üçün şərait yaratmışdır. Belə bir fondların yaradılması maliyyə sektorunun inkişafına əhəmiyyətli təsir göstərmişdir. (Əzizova G., 2012: s.44-56)

Xarici investisiyaların iqtisadiyyatımıza cəlb edilməsi üzrə valyuta siyasətinin uğurla həyata keçirilməsi Azərbaycan dövlətinin davamlı inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Son dövrlər siyasi sabitlik və iqtisadi inkişaf digər dövlətlərin ölkə iqtisadiyyatımıza investisiya qoyulması üzrə marağını artırmışdır. Uğurlu investisiya siyasətinin həyata keçirilməsi üzrə xarici investisiyaların qorunması, investorların hüquq və mənafelərin qorunması üzrə mühüm hüquqi baza yaradılmışdır. Respublikamızın inkişafına investisiyaların cəlb edilməsi məqsədi ilə hökümətimiz tərəfindən açıq qapı siyasəti keçirilməkdədir. Bütün bunlar Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirmişdir.

Davamlı inkişafa nail olmaq məqsədi ilə maliyyə siyasətinin aşağıdakı istiqamətləri əhatə etməsi daha məqsəd uyğundur;

- Regionun təbii , iqtisadi və elmi-texniki potensialından tam və səmərəli istifadə
- İstehsalın kompleks inkişafı, yəni regionlarda təbii- iqtisadi potensialdan və xammal ehtiyatlarından irəli gələn sahələrin inkişafı;
- Əmək bölgüsü prinsiplərindən irəli gələn reallıqların regional siyasətdə nəzərə alınması.

# Fəsil II Azərbaycanda Davamlı İnkişafa Keçidin Təmin Edilməsi Baxımından Maliyyə Sisteminin və Maliyyə Siyasətinin Müasir Vəziyyəti və Onun Qiymətləndirilməsi

## 2.1 Maliyyə sistemi və onun strukturu

Maliyyə siyasətinin həyata keçirilməsində maliyyə sistemi mühim rol oynayır. Maliyyə mürəkkəb struktura malik olan sistemlərdən biridir. Maliyyə sisteminin, həm də onun ayrı-ayrı elementlərinin müxtəlif aspektlər üzrə öyrənilməsində praktiki tövsiyələrin hazırlanması çox vacibdir. Maliyyə sferasının digər bir adı da maliyyə sistemi adlandırılır. Pul vəsaitlərinin yaranması və istifadəsi prosesində yaranan maliyyə münasibətlərinin məcmusuna maliyyə sistemi deyilir. Maliyyə sistemi kreditorlar, investorlar və borcalanlar arasında pul mübadiləsini təmin edən bir sistemdir. Maliyyə sistemləri milli və qlobal səviyyədə fəaliyyət göstərir. Onlar investorlar və əmanətçilər arasında səmərəli və müntəzəm əlaqə qurmağı nəzərdə tutan kompleks, yaxından əlaqəli xidmətlər, bazarlar və təşkilatlardan ibarətdir. Pul, kredit və maliyyə ölkələrinin sistemlərində mübadilə vasitəsi kimi istifadə olunur. Onlar mal və xidmətlərin barterinqə alternativ olaraq mübadilə edilə biləcəyi bilinən bir dəyər kimi xidmət edirlər. Subyektlərinə və məqsədlərinə görə dövlət maliyyəsi mühim rol oynayır.

Dövlət maliyyəsi-bir qayda olaraq, dövlət funksiyalarının yerinə yetirilməsi üçün pul formasında ifadə olunmuş və ÜDM-nin bölüşdürülməsinə və formalaşdırılmasına istiqamətlənmiş iqtisadi münasibətlər toplusudur. Dərsliklərdən də bildiyimiz kimi dövlət maliyyəsinin aşağıdakı növləri vardır:

- Xüsusi dövlət fondlarının maliyyəsi;
- Dövlət krediti;
- Dövlət siğortası;
- Həm istehsal , həm də qeyri-istehsal sferasının dövlət müəssisələrinin maliyyəsi.

Maliyyə sistemi əməliyyatların həyata keçirilməsi sferasına görə iki yerə ayrılır: Daxili maliyyə və xarici maliyyə.

Daxili maliyyə - dövlətin daxili maliyyə münasibətlər sistemini əhatə edir.

Xarici maliyyə - maliyyə münasibətləri sistemində xarici ölkə subyektlərinin iştirakını nəzərdə tutur. Ayrı-ayrı ölkələrin müxtəlif subyektlərinin üstün və çatışmayan cəhətləri nəzərə alınaraq, dövlətin mövcud sərhədləri çərçivəsində yenidən nəzərdən keçirilir. Müxtəlif ölkələrin beynəlxalq maliyyə bazarlarında əməkdaşlığına əsaslanan beynəlxalq maliyyə münasibətlər sistemi öz maliyyə maraqlarını müdafiə edən müxtəlif ölkə qruplarının yaradılma imkanını nəzərdə tutur.

Hər bir ölkədə maliyyə münasibətləri mərkəzləşdirilmiş fondların yaradılması ilə əlaqədar olaraq formalaşır. Maliyyə sistemi maliyyə münasibətlərinin qarşılıqlı əlaqəli sfera və hissələrinin toplusundan ibarətdir. Maliyyə münasibətləri mərkəzləşdirilmiş və mərkəzdənqaçma maliyyəsi olaraq iki sferaya ayrılır. Mərkəzləşdirilmiş maliyyə sistemi büdcədənkənar fondlar, dövlət büdcəsi, dövlət sığortası, dövlət krediti əhatə edir.

Mərkəzdənqaçma maliyyə dedikdə isə, müxtəlif əlamətlərinə görə qruplaşdırıla bilən maliyyə başa düşülür.

Maliyyə sisteminin funksiyaları dedikdə, ona məxsus olan xassələrin təzahürü, yəni onun iqtisadi münasibətlər sistemində yerinə yetirdiyi rol başa düşülür. Bu funksiyalar maliyyə sisteminin  mahiyyətini və məzmununu açıqlayır. Maliyyə sisteminin iki əsas funksiyası vardır .

- Bölüşdürücü;
- Nəzarət.

Bölüşdürücü funksiyanın əsas fməqsədi ÜDM-in, milli gəlirin bölüdürülməsi və yenidən bölüşdürülməsidir. Bu funksiyadan ÜDM-nin təkrar istehsalında və onun bölgüsünün müxtəlif  mərhələsində bilavasitə istifadə edilir.  Maliyyənin bu iki

funksiyası əsasən maliyyə mexanizmi vasitəsi ilə həyata keçirilir. Nəzarət funksiyası vasitəsi ilə dövlət tərəfindən maliyyə axınları(əməliyyatları) üzərində nəzarət başa düşülür. Maliyyə mexanizmi, yəni maliyyə münasibətlərinin necə idarə olunmasını göstərən üsulların cəmi olaraq bilinməkədir.

Maliyyə sisteminin ayrı ayrı bölmələri və alt sistemləri ayrılıqda bir-birindən onların fəaliyyətinin əsas xüsusiyyətləri ilə fərqlənir. (Zeynalov V.Z., 2008:15-23)

Müasir maliyyə sisteminə banklar (dövlət sektoru və ya özəl sektor), maliyyə bazarları, maliyyə alətləri və maliyyə xidmətləri daxildir. Maliyyə sistemi, iqtisadiyyat sektoru arasında ayrılan, sərmayə edilmiş və ya köçürülməsinə imkan yaradan sistemdir. Maliyyə sisteminin bir çox komponentləri vardır:

Maliyyə institutları-Maliyyə təşkilatları üzv və müştərilər üçün maliyyə xidmətləri göstərir. Onlar bəzən maliyyə vasitəçiləri də adlandırılır, çünki onlar borcverən və borcalanlar arasında vasitəçi kimi çıxış edirlər.

Banklar - gəlir gətirmək və depozitləri qəbul etmək üçün borcalanlara pul köçürən maliyyə vasitəçiləridir. Onlar adətən tənzimlənir, çünki onlar bazar sabitliyi və istehlakçı mühafizəsi təmin edir. Banklar Mərkəzi Bankdan və kommersiya bankları sistemindən ibarətdir. Dərsliklərdən də bildiyimiz kimi qeyri-bank maliyyə qurumları investisiya, bazar brokerliyi kimi maliyyə xidmətlərini göstərirlər. Onların ümumilikdə tam bank lisenziyaları yoxdur.Qeyri-bank maliyyə təşkilatlarının bir çox növləri vardır:

- Maliyyə və kredit şirkətləri;
- Sığorta şirkətləri;
- Qarşılıqlı fondlar;
- Əmtəə treyderləri.

Maliyyə sistemin özündə beş funksiyanı birləşdirir:

1) İqtisadi resursların yerdəyişməsinin təminatı;

2) Risklərin idarəedilməsi;

3) Ödənişlərin və klirinqin həyata keçirilməsi;

4) Maliyyə resursların birləşdirilməsi və ayrılması;

5) Qiymət informasiyaları barədə məlumatlara təminat.

Azərbaycan Respublikasının maliyyə kredit sisteminin təşkilatı strukturu iki hissədən ibarətdir.Bunlara maliyyə sistemi və kredit sistemi aiddir.

Maliyyə sisteminə mərkəzləşdirilmiş maliyyə, təssərrüfatçılıq subyektlərinin maliyyəsi və ev təssərüffatı maliyyəsi aiddir.(www.maliyyə.gov.az)

Kredit sisteminə də bank sistemi və poçt-əmanət sistemi aiddir .

Maliyyə sisteminin bir çox elementləri, altsistemləri mövcuddur. Maliyyə sistemi pul vəsaitlərinin müxtəlif istiqamətlərə axını, müxtəlif layihələrə çəkilən xərclərdən, pul fondlarından və s. ibarətdir. Bütün bu proseslərinin hamısı bir biriynən sıx bağlıdır. Məsələn əgər ölkə ərazisində uçot dərəcəsi aşağı salınarsa, bu kreditin və dövriyyədəki pulun həcminin artımına təsir edəcəkdir. Beləliklə maliyyə sistemi pul vəsaitlərinin yaranması və istifadəsi nəticəsində yaranan maliyyə münasibətlərinin məcmusudur. Buna görə də maliyyə sisteminin dörd böyük alt sistemi mövcuddur; ev təsərrüfatının maliyyəsi, dövlət və bələdiyyə maliyyəsi, müəssisə maliyyəsi və beyəlxalq maliyyə. (bax sxem 1) (Zeynalov V.Z,2008:s.19) İctimai maliyyə sisteminin iki funksiyası vardır.Bunlar bölgü funksiyası və nəzarət funksiyası adlanır. Bəzi iqtisadçılara maliyyə resurslarının effektiv bölgüsünü maliyyə sisteminin əsas funksiyalarından biri hesab edirlər. Onlar düşünürlər ki, maliyyə sisteminə resursların sadəcə bölgü olaraq deyil, effektiv bölgü olaraq yanaşılmalıdır.

**Sxem 1. Maliyyə sisteminin təsviri sxemi**




Mənbə: Zeynalov V.Z., 2008: s. 35

Maliyyə sistemi maliyyə münasibətlərinin əhatə dairəsində formalaşan əmlak sığorta fondları ,müəssisə, idarə,təşkilat,digər kommersiya və həmçinin q/kommersiya qurublarının pul fondları, dövlətin valyuta ehtiyatları və s. halqalardan ibarətdir.

Bölgü münasibətlərinin daşıyıcısı olan maliyyə sistemində bölgü əsasən ayrı-ayrı təsərrüfat subyektləri daxilində baş verir. Maliyyə sistemi yaradılan fondların və bu fondlardan istifadə olunma qaydasından asılı olaraq iki yerə ayrılır:

- Dövlət maliyyəsi;
- Müəssisə və təşkilatların maliyyəsi.

Ölkə iqtisadiyyatını tənzimlənməsi, ölkənin sosial cəhətdən inkişafına nail olmaq üçün dövlət maliyyəsindən istifadə edilir. Bu vəzifəni yerinə yetirmək üçün dövlət maliyyəsinin həlqələrindən istifadə edilir və bu həlqələr mərkəzləşdirilmiş maliyyənin bir hissəsidir. Bu əsasən makro səviyyədə inkişafa aiddir.

Mikro səviyyədə iqtisadi inkişafı tənzimləmək üçün isəiqtisadiyyatı və maliyyə-bölgü münasibətlərini tənzimləmək üçün müəssisə və təşkilatların maliyyəsindən istifadə edilir.

Eyni zamanda maliyyə sisteminə kredit-bank sistemi də daxildir.Tərkibinə ölkənin

bankları və digər kredit idarələri daxildir. Ölkənin maliyyə fəaliyyətini həyata keçirən və tənzimləyən dövlət maliyyə institutları var ki, maliyyə sisteminin əsas tərkib hissələrindən biri sayılır. Azərbaycan Respublikasının Maliyyə Sistemi aşağıdakı sxemdə öz əksini tapmışdır. (bax sxem 2. ) (Zeynalov V.Z.,2008:s.34-64)

**Sxem 2. Azərbaycan Respublikasının Maliyyə Sistemi**




Mənbə: Zeynalov V.Z, 2008: s.44

Dövlətin Mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması və istifadəsinin əsasını Azərbaycan Respublikasının dövlət büdcəsi təşkil edir. Dövlətin funksiyalarının yerinə yetirilməsi ilə əlaqədar olan xərclərin maliyyələşdirilməsi üçün ölkənin dövlət büdcəsinin olması vacibdir. Azərbaycan Respublikasının dövlət büdcəsi Respublika (mərkəzi) büdcəsindən, Naxçıvan Muxtar Respublika büdcəsindən ibarətdir.Eyni zamanda buraya yerli büdcələr də aiddir.

Hazırda Azərbaycan Respublikasının büdcə sistemi iki səviyyədən ibarətdir:

- Azərbaycan Respublikasının dövlət büdcəsi;

- Bələdiyyələrin büdcəsi.

Büdcədənkənar fondlar – büdcə sisteminə daxil olmayan, normativ aktlarla müəyyən olunmuş və dövlətin əsas tərkib hissəsi olan maliyyə fondlarıdır.

Büdcədənkənar fondlar sosial və istehsal yönlü olaraq iki yerə ayrılırlar. Əhaliyə göstərilən sosial xidmətlərin daha da genişləndirilməsi, infrastrukturyönlü sahələrə qoyulan investisiyaların artırılması və s. bu fondların əsas fəaliyyət növlərindən biridir. Ölkəmizdə bir çox pensiya, sosial siğorta və eyni zamanda məcburi tibbi siğorta fondları yaradılmışdır.

Dövlət Krediti - dövlət tərəfindən öz xərclərini maliyyələşdirmək məqsədilə şirkət, təşkilat və yerli əhalinin müvəqqəti olaraq istifadə edilməyən pul vəsaitlərinin cəlb edilməsi üzrə münasibətləri əhatə edir. Dövlət krediti qiymətli kağızlar və eyni zamanda istiqrazlar nəticəsində əldə olunur. Dövlət krediti həmcinin ölkənin xarici borcu sayılır, bu kredit vasitəsi ilə ölkə büdcədə yaranan kəsiri aradan qaldırmaq üçün digər ölkələrdən kredit alır.

Dövlət maliyyəsinə daxil olan digər ünsürlərdən biri də siğorta fondudur. Siğorta fondu qarşılaşa bilinəcək bütün bədbəxt hadisələrin nəticəsində dəyən zərərin ödənilməsini təmin edir.

Maliyyə sisteminin digər tərkib hissəsindən biri də müəssisə və təşkilatların maliyyəsidir. Müəssisə və təşkilatların yaranmasının əsas məqsədi ölkənin ictimai tələbatını ödəməkdir. Onlar buna məhsul istehsal etməklə, xidmət göstərməklə nail olurlar. Müəssisə və təşkilatlar qanunla müəyyən edilmiş hüquqi şəxsdir. Müəsisə və təşkilatların əldə etdiyi gəlirlər sonradan müxtəlif yollarla yenidən bölüşdürülür.

Məlum məsələdir ki, ictimai maliyyənin mövcudluğundan danışa bilmək üçün Mərkəzi Dövlət Bankı,vergi-gömrük orqanları,maliyyə-xəzinədarlıq orqanları və s. idarəetmə strukturlarının olması vacibdir.Yəni, hüquqi normaların, qaydaların və təşkilatın məcmusu ilə dövlət maliyyə sistemi formalaşır. Azərbaycanda Dövlət və

bələdiyyə maliyyə sisteminin idarəetmə strukturu aşağıdakı sxemdə əks olunmuşdur.

(bax sxem 3)

Prezident dövlət büdcəsini təsdiqləyərək, ictimai maliyyə sisteminin tənzimlənməsində rəhbər birinci şəxsdir. Maliyyə qanunverciliyinin təşəbbüsü ilə çıxış edərək, büdcə icrasına ümumi nəzarəti həyata keçirir. Prezidentin səlahiyyətləri konstitusiyamızın 109-cu maddəsində öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetindən başqa həmçinin, Maliyyə Nazirliyi də ölkə ərazisində maliyyə strukturana nəzarət edən orqan kimi tanınır. Belə ki, dövlət maliyyə siyasətinin hazırlanması və bu siyasətin həyata keçirilməsinə nəzarət, dövlət büdcə layihəsinin hazırlanması və icrasına nəzarət, maliyyə siyasətinə ümumi nəzarət və s. Maliyyə Nazirliyinin səlahiyyət və vəzifələrinə daxildir. Sxemdən də göründüyü kimi, Milli Məclisin ictimai maliyyə sisteminin tənzimlənməsində xüsusi rolu vardır. Belə ki, Milli Məclis dövlət büdcəsinin qəbuluna və icrasına xüsusi nəzarət edir. Eyni zamanda Milli Bankın İdarə Heyəti üzvlərinin təyinatı məsələlərinə də Milli Məclis baxır.

Azərbaycan Respublikasının konsititusiyasına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin maliyyə səlahiyyətlərinə aşağıdakılar daxildir:

1)Büdcə layihəsinin hazırlanması;

2)Büdcə layihəsinin prezidentə təqdim edilməsi;

3)Büdcə icrasını həyata keçirməsi və s.

**Sxem 3.Dövlət və Bələdiyyə maliyyə sisteminin idarəetmə strukturu**




Mənbə: Zeynalov V.Z., 2008. S.94

Ölkə üzrə maliyyə sistemi ilə qarşılıqlı əlaqədə çalışan orqanlardan biri də İqtisadiyyat Nazirliyidir. Bu orqanın əsas fəaliyyət sahəsinə ölkənin ümumi iqtisadi inkişafı, iqtisadi səmərəliliyin artırılması, ölkə iqtisadiyyatına faydalı ola biləcək yeni biznes planlarının hazırlanması və həyata keçirilməsi, makroiqtisadi sabitliyin qorunması, ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi, ölkə iqtisadiyyatının gələcəkdə də inkişafının təmin edilməsi üçün uzunmuddətli proqnoz layihələrinin hazırlanması və s. daxildir. Bütün bunları nəzərə alaraq əminliklə demək olar ki, İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının maliyyə siyasəti və maliyyə strukturunun səmərəli təşkili və formalaşmasında mühüm rol oynayır.

Mərkəzi Bank maliyyə sisteminin komponentləri arasında qarşılıqlı əlaqələrin qurulmasında xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda bu qurum idarəetmə səviyyəsində də fəaliyyət göstərir və büdcənin kassa icrasında Mərkəzi Bankın fəaliyyəti bu faktı təsdiqləyir. Mərkəzi Bankın fəaliyyətinin əsas məqsədi qiymətlərin

sabitliyini, həmçinin bank və ödəniş sistemlərinin sabitliyini və inkişafını təmin etməkdir. Mənfəət götürmək Mərkəzi Bankın əsas məqsədi deyildir.

## 2.2 Azərbaycanın maliyyə siyasətinin məzmunu və vəzifələri

Müasir dövrdə hər bir ölkə iqtisadi inkişafa nail olmağa çalışaraq öz siyasətini müxtəlif cür istiqamətlərdə qruplaşdırır:

- iqtisadi sahələr üzrə
- sosial sahələr üzrə
- milli maraqlar baxımından
- hərbi potensial baxımından
- geosiyası istiqaməti üzrə.

İqtisadi siyasətin tərkib hissəsindən biri də maliyyə siyasətidir. Maliyyə siyasətinin təşkil olunma səviyyəsindən asılı olaraq iqtisadi siyasət həyata keçirilir və cəmiyyətin ümumi inkişaf istiqamətləri müəyyən edilir.

Səmərəli dövlət idarəçiliyi və davamlı inkişafın təmin olunması, maliyyə resurslarının dövlət siyasətinin əsas istiqamətlərində cəmləşdirilməsi, milli sərvətlərin və əvəzedilməz resursların istifadə olunması üçün rasional rejimin müəyyən olunması, dövlət maliyyə sabitliyinin ( sabit inkişaf üçün maliyyə təminatı) və eyni zamanda maliyyə təhlükəsizliyinin təchiz olunması, həmçinin əhalinin həyat səviyyəsinin təmin olunması maliyyə siyasətinin əsas məqsədlərindən biridir. Eyni zamanda dövlətin maliyyə mexanizmin elementləri olan maliyyə qanunvericiliyi, maliyyə münasibətlərinin təşkilatı formaları, ictimai pul fondlarının yaradılması və istifadə olunması, maliyyə proqnozlaşdırılması və planlaşdırılması metodologiyası, maliyyənin idarə olunması maliyyə siyasətinin məqsədləri siyahısına daxildir. Dövlət-maliyənin inkişafının əsas istiqamətlərini müəyyən edən, iqtisadi məsələlərə nail olmağın vasitə və yollarını müəyyən edən maliyyə siyasətinin başlıca subyektlərindən

biridir. Qarşıya qoyulan məsələlərin həll olunma metodunnan və xarakterindən asılı olaraq maliyyə siyasətinin iki növü vardır:

- Maliyyə strategiyası;
- Maliyyə taktikası.

Maliyyə strategiyası əsasən iri miqyaslı məslələrin həllində istifadə olunan maliyyə siyasətidir.

Əsas sahələrdə rastlaşdığımız maliyyə məsələlərinin həll olunması üçün maliyyə strategiyasından və yaxud maliyyə taktikasından istifadə edilir.

Sosial cəhətdən ölkənin davamlı inkişafının təmin olunması üçün zəruri olan maliyyə ehtiyatlarının tam səfərbərliyə alınması maliyyə siyasətinin əsas məqsədidir.

İnsanların həyat səviyyəsinin yüksəldirilməsi, dayanıqlı və davamlı inkişaf, dövlət gəlirlərinin artırılması, büdcə tarazlığına nail olmaq və iqtisadi sabitliyin təmin edilməsi maliyyə siyasətinin əsas vəzifəsidir. Bu vəzifələrin yerinə yetirilməsi zamanı aşağıdakılar nəzərə alınmalıdır:

- Maliyyə siyasətinin təşkili zamanı müəyyən məkan və zaman daxilində hər bir ölkənin spesifik xüsusiyyətləri nəzərə alınmalıdır;
- Maliyyə ehtiyatlarının səmərəli istifadə istiqamətləri müəyyən edilməlidir;
- Maliyyə münasibətlərinin təşkilinin metod və üsulları müəyyənləşdirilməlidi.

Azərbaycan Respublikasının müstəqillik dövründəki iqtisadi artım prosesi 4 mərhələdə quruplaşdırılır.

1991-1993-cü llər ölkəmizin tənəzzül dövrü kimi qiymətləndirirlər. Bu dövr məhz ölkəmizin müstəqilliyinin bərpası dövrünə təsadüf edir. Müharibə şəraitinin olması, bir çox qaçqın və məcburi köçkünlərin maddi və mənəvi problemlərlə üzləşməsi, eyni zamanda ticarət əlaqələrinin zəifləməsi nəticəsində ölkənin iqtisadiyyatına xeyli ziyan vurmuşdur. Bu dövrdə iqtisadi idarəetmənin zəif olması böhranı daha da

dərinləşdirmişdir. Bunu Beynəlxalq valyuta fondunun hesabatlarından da görmək mükündür.Hesabat təsdiq edir ki, Azərbaycan Respublikası həmin dövrdə iqtisadi imkanlarının altmış faizini itirmiş, real ÜDM-i orta hesabla baxsaq görərik ki, on yeddi faiz aşağı düşmüşdür. (www.stat.gov.az)

1994-2003-cü illəri əhatə edən bu dövr dərin iqtisadi islahatlar, dövrü adlanır. Bu dövrdə Ümumilli lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıtması ilə birlikdə özü ilə ölkəyə siyasi sabitlik, səmərəli iqtisadi münasibətlər, strateji iqtisadi islahatlar gətirdi.Mühim islahatlardan biri olan torpaq islahatı və eyni zamanda dövlət əmlakının özəlləşdirilməsi islahatı bu dövr üçün xarakterikdir. Eyni zamanda ölkəmizin yüksək sürətli inkişafının əsas göstəricisi olan neft strategiyasının təməli məhz bu dövrdə qoyuldu. Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" məhz bu dövr üçün xarakterikdir. Eyni zamanda işsizliyin azaldılmasına, milli valyutanın sabitliyinə nail olunmuş, iqtisadi artım yenidən bərpa olunmuş, ölkə büdcəsinin təmin olunması üçün dayanıqlı mənbələr təchiz olunmuşdur.

2004-2014-cü illər Prezident İlham Əliyevin ölkə başçılığına irəli sürüldüyü və ölkəni səmərəli idarə edilməsi nəticəsi olan bu dövr tərəqqi dövrü kimi tanınmaqdadır. İqtisadi artım modeli bu dövr üçün xarakterikdir və bunun nəticəsidir ki, həmin dövrdə bu model Azərbaycan iqtisadiyyatını dünyanın ən sürətli artan iqtisadiyyatlarından birinə çevirmiş, iqtisadi baxımdan altı dəfə böyümüş, hər adama düşən gəlir beş dəfədən çox yüksəlmişdir. Neftdən əldə edilmiş gəlirlərinin bir hissəsinin ölkə iqisadiyyatına investisiya edilməsi nəticəsində qısa müddət ərzində ölkəmiz iqtisadi baxımdan yüksək-orta gəlirli ölkələrdən birinə çevrilmişdir.Həmçinin bu dövrdə Bakı-Tibilisi–Ceyhan neft kəmərinin rəsmi açılışı baş tutmuşdur. (www.stat.gov.az)

2014-cü ilin sonlarından etibarən Aşağı neft qiymətləri dövrü adlanır.Bu dövrdə neftin qiymətinin kəskin ucuzlaşması nəticəsində 2015 ci ilin ikinci yarısından sonra Azərbaycanın iqtisadiyyatında öz təsirini göstərməyə başladı.İlk təsiri Məhz tədiyyə

balansı üzərində oldu.Dolların məzənnəsi milli valyuta qarşı bahalaşması, maliyyə sabitliyinin pozulmasına, dövlət borclarının ödənilməsini risk altına aldı. Bə nə üçün ölkəmiz  2015 devalvasiyasının şahidi oldu, bu devalvasiyanı yaradan əsas səbəb nə idi? Bu sual təbii ki, hamımızı düşündürən bir sualdır.Bu suala cavab vermək üçün Azərbaycanda iqtisadi sistemi təhlil etməyi bacarmalıyıq. Əslində dollar qalxmır dollar stabildir.Sadəcə manat aşağı düşür. Problem ondan ibarətdir ki, bizdə istehsal sahələri yetərincə inkişaf etməyib. Buna görə də bizdə manatın məzənnəsinin dəyişməsi, dolların bahalaşması bütün sahələrə ciddi təsir göstərir, çünki idxaldan ixraca nisbətən daha çox asılıyıq. Ölkədə hansı sahəni götürsək, idxal mallarının üstünlüyünü görəcəyik. İdxal olunan malların 90% dollarnan alınır.İdxal malları çox olduğu üçün iqtisadiyyatın inkişafı ləngiyir. İqtisadiyyatın güclü olmasını şərtləndirən amillərdən biri də məlum məsələdir ki, istehsal amilidir.Zavodların ,fabriklərin məhdud sayda olması iqtisadiyyatımıza mənfi təsir göstərir. Biz nəsə istehsal etmədiyimiz üçün , məcbur asılı qalırıq xarici bazardan.Təsəvvür edinki hansısa ticarətci gedib xaricdən mal alıb gətirir.Ona təbii ki, mal ala bilməsi üçün dollar lazımdır. Normalda xarici valyutanın formalaşması bu cürdür. Məsələn sən nəsə istehsal edirsən, məhsuluvu xaricə satırsan.Xarici öz valyutasıynan sənin ölkəndə pulunu dəyişir, sənin valyutanı alır.Sənin valyutanla sənin məhsuluvu başdıyır almağa və ölkədəki dollarnan manat tənzimlənir. Normalda da bir şeyin qiyməti o zaman qalxır ki,əgər o şey ölkədə defisit olursa. İqtisadiyyat diliynən desək əgər tələb təklifdən çoxdursa qiymət başlayır qalxmağa. Ölkəmiz də nefti dollarnan satır başqa ölkələrə. Sonra dövlət o dolları banklar vasitəsi ilə buraxır iqtisadiyyata və sən xaricdən əmtəə almaq məqsədi ilə 100 manata gedib 120 dollar alırsan. Daha sonra o əmtəəni öz ölkəndə 200 manata satırsan. Nəticədə dollar Azərbaycandan çıxır, və ölkədə dollar defisitləşməyə başlayır. Dollara olan tələb təklifi üstələdiyi üçün dolların manat qarşısında dəyəri qalxır.Araşdırmalarım nəticəsində belə qərara gəlmişəmki ölkəmizdə 2015-ci il devalvasiyasının başlıca səbəbi məhz istehsal sahələrinin nisbətən zəif inkişaf etməsidir.  Bu dövrlərdə neftin qiymətinin düşməsi

ölkəmizin tədiyə balansına, daxili balansına, o cümlədən bank-maliyyə sektoruna ciddi təsir göstərmişdir. Tədiyyə balansı qiymətlərindən olduqca çox təsirlənməyə məruz qalmışdır. Dövlət Gömrük Komitəsinin hesabatına nəzər yetirsək görərik ki, 2015-ci il ərzində otuz üç tam onda üç faiz azalan ticarət dövriyyəsi, iyirmi tam onda yeddi dolları, 2016-cı ilin əvvələrini ötən ilnən müqayisə etsək iyirmi dörd tam onda doqquz faiz azalaraq, on bir tam onda üç milyard dolları təşkil etmişdir. Yekun olara 2015-ci ilə baxsaq deyə bilərik ki, xarici ticarət saldosu 2,2 milyard ABŞ dolları (5,7 dəfə azalma), növbəti 2016-ci ilin ilk aylarında isə 250,3 milyon ABŞ dolları olmuşdur. Lakin bu vəziyyət çox da uzun çəkmədi. Aparılan uğurlu siyasətin nəticəsində ölkə iqtisadiyyatı tez bir zamanda inkişaf eləməyə başladı. Yeni-yeni iş yerləri, istehsal müəssisələri açılmağa başlandı. Qeyri/neft sektorunun inkişafı üçün yüksək məbləğdə investisiya qoyuldu. Aparılan düzgün addım ölkənin dayanıqlı və davamlı inkişafına şərait yaratdı. (http://www.azerbaijan-news.az/)

2004-cü ildən başlayaraq 2014- cü ilə kimi ölkəmizdə büdcə xərclərinin miqdarı on iki tam onda beş dəfə artmış, ümumi xərclərin Ümumi Daxili Məhsula olan nisbəti isə on dörd faiz artaraq otuz iki faizə kimi yüksəlmişdir. Həmçinin büdcəyə daxil olan kapitalnan bağlı xərclər fiskal genişlənmənin artmasına səbəb olmuşdur. Bu dövlərdə xərclərin ümumi miqdarı səkkiz dəfə artmışdır. Lakin kaitalnan bağlı olan xərclər isə qırx bir tam onda beş dəfə yüksəlmişdir. Büdcə gəlirlərinin ümumi miqdarı isə on iki dəfə artmışdır.

Bu dövlərdə bir digər diqqət çəkən məqamlardan biri də qeyri-neftnən bağlı olan gəlirlərin bütövlükdə ümumi gəlirlərdə olan payı otuz faiz azalmışdır və bununla da altmış dörd faizdən otuz dörd faizə enmişdir. Gəlilərin xüsusi ilə artmına səbəb olan amillərdən biri də ölkəmizin neft fondundan olan transfertlərın xüsusi çəkisin artması ilə bağlı olmuşdur.

**Şəkil 1. Neft gəlirlərinə və eyni zamanda cari hesab balansına təsir edən neft qiymətləri**




**Mənbə: "Ekonomist" jurnalının analitika şöbəsi, ARDNF, Maliyyə Nazirliyi**

Ümumilikdə baxsaq Azərbaycan iqtisadiyyatı yüksək iqtisadi yüksəlişə malik olan ölkələrindən biri kimi son 15 il ərzində ən yüksək iqtisadi keyfiyyət baxımından yeni mərhələyə qədəm qoymuşdur. Ölkədə həyata keçirilən uğurlu maliyyə siyasətin nəticəsində ölkəmiz iqtisadi baxımdan genişlənməyə, əhalinin həyat səviyyəsinin yüksəlməsinə, sosial və iqtisadi cəhətdən infrastrukturun daha da müasirləşməsinə xeyli imkan yaranmışdır.

Bu illər ərzində təhlil etsək deyə bilərik ki, iqtisadi artımın ümumi olaraq miqdarı on tam onda altı faiz yüksəlmişdir. Ümumi Daxili Məhsulun həcminə baxsaq görərik ki, yeddi tam onda altı dəfə artma müşahidə olunmuşdur. Həmçinin bu illər ərzində hər adama düşən Ümumi Daxili Məhsulun ümumi həcmində altı tam onda beş dəfə yüksəlmə olmuşdur və bununla da ölkəmiz digər ölkələr arasında yüz otuz dördüncü yerdən yetmiş doqquzuncu yerə kimi qalxmışdır. İnsanların sosial rifahında müsbət

yöndə yaxşılaşma görülmüşdür. Xüsusi ilə yoxsulluğun səviyyəsi qırx tam onda iki faizdən, dörd tam onda doqquz faizə kimi azalmışdır.

Uzun illərdir ki, Azərbaycanın iqtisadi inkişaf nəyin ki, özünü Bakı şəhərində hətda başqa regionlarımızda da özünü biruzə vermişdir. Yeni uğurlu dövlət proqramlarının yaradılması yeni iş yerlərin açılması ilə nəticələnmişdir. Regionların iqtisadi inkişafı ilə bağlı üç dövlət proqramının müvəffəqiyyətlə icra olunması bunu deməyə imkan verir. Hələ 2004-cü ildə respublikamızda sosial-iqtisadi inkişafla əlaqədar dövlət proqramı həyata keçirilərkən valyuta ehtiyyatlarının 1,8 milyard dollar təşkil edirdi. Respublikamızda bu məbləğin kiçik olmasına baxmayaraq xeyli işlər görüldü və hal-hazırda ölkəmizin valyuta ehtiyyatları 45 milyard dollara keçmişdir. Bu çox böyük nəaliyyətdir. Son dövrlərdə ölkəmizdə çoxşaxəli islahatların ardıcıl olaraq keçirilməsi, qeyri-neft sektorunda ixracatın genişləndirilməsi və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, qeyri-neft sektorunun inkişaf etməsinə səbəb olmuşdur. Bunlar davamlı iqtisadi inkişaf baxımından mühim uğurlardır.

2014-2018-ci illərdə cənab prezidentimiz İlham Əliyev regionların inkişafı üçün dövlət büdcəsindən 24,2 milyard manat pul ayırmışdır. Eyni zamanda 400-dən çox imzalanmış sərəncam əsasında şəhər və rayonlara 2,8 milyard manat sosial-iqtisadi inkişafın təmin olunması məqsədi ilə vəsait ayrılmışdır. Son 15 ilə nəzər yetirsək görərik ki, doğurdanda Azərbaycan bir çox tarixi uğurlara imza atıb.

2019-cu il yanvarın 29-da keçirilən konfrasda Prezident İlham Əliyev 2014-2018-ci il üçün regionların sosial-iqtisadi inkışafını bir daha dəyərləndirdi. Azərbaycan Respublikasının son 15 ildə rekord templerlə iqtisadiyyatın dünya miqyasında inkişaf etdiyini dilə gətirdi.Bunu ümümi daxili məhsulun həcminin 3,3 dəfə artması da təsdiqləyir.Azərbaycanın son 15 ildə göstərdiyi iqtisadi eyni zamanda sosial göstəricilər aşağıdakılardır:

- ümumi Daxili Məhsulun həcminin 3,3 dəfə artım göstərməsi;
- valyuta ehtiyatların 45 milyard dollara kimi qalxması;

- ölkə iqtisadiyyatına qoyulan sərmayənin 250 milyard dollar olması;
- statistik göstəricilərə görə 2,8 dəfə yüksələn qeyri-neft sektoru;
- yeni müəssislərin yaradılması, statistik göstəriciyə əsasən 100 mindən çox müəssisə yaradılıb;
- sahibkarlara stimul verilməsi məqsədi ilə onlara ayrılan kreditlərin 2 milyard manatı ötüb keçməsi;
- pensiyalar və maaşların xeyli artımı;
- Asan Xidmət mərkəzinin 15 yerdə açılışı;
- Əhalinin qaznan təminatını 95%-ə çatdırılması;
- Ölkə ərazisində tikilən dörd böyük su anbarı;
- 44 olimpiya mərkəzinin respublikamızın müxtəlif bölgələrində yaradılması;
- 3270-dən çox təhsil ocaqlarının əsaslı şəkildə təmir olunması və ya yenidən bərpa olunması;
- 6144 avtomobilin müharibə əlillərinə verilməsi və eyni zamanda şəhid ailələri də daxil olmaqla 6654 mənzilin təhvil verilməsi;
- 17 yeni aqroparkın istifadəyə verilməsi;
- Yeni avtomobil yollarının salınması, ststistik göstəricilərə əsasən 15 kilometr avtomobil yolu çəkilib;
- İnsanların içməli suya olan tələbatını 70% çatdırılması;
- Mingəçevir və Sumqayıtda yeni-yeni parkların salınması;
- Bir çox rayonumuzda sənayə məhəllələrinin yaradılması. (www.azerbaijan-news/az)

Dövlət Proqramının icrası nəticəsində regionlarımızda aqrar sektorunda və sənayedə yüksəlişlər baş verdi. Regionlarda sənaye parklarının salınması, yeni-yeni müəssisələrin, fabrik və zavodların tikilməsi, bir vaxtlar işsizlik səbəbindən paytaxt

əraziyə axın edən insanların yenidən rayonlara üz tutmasına səbəb oldu. Hal-hazırda bu müəssisələrdə çalışan işçilərin sayı yüzlərlədir. Bu müddət ərzində Azərbaycan kosmik ölkələrdən birinə çevrildi, ölkəmizin 3 peykinin olması buna əyani sübutdur.

Ümummilli lider Heydər Əliyev səriştəsi nəticəsidir ki, neft sektorunda aparılan uğurlu siyasət neftdən əldə olunmuş gəlirlərin artımı ilə nəticələnmiş və əldə edilmiş maliyyə vəsaiti hesabına yüksək sürətlə inkişaf edən iqtisadi artımın maliyyələşdirilməsinə imkan vermişdir. (http://www.azerbaijan-news.az/)

Ölkəmizdə aparılmış iqtisadi islahatlar nəticəsində ölkənin reytinq göstəricilərinin irəliləmələr müşayiət olunmuşdur.

Ölkəmizin qarşılaşa biləcəyi böhran vəziyyətinin qarşısının alınması üçün əsas fəaliyyət sənədindən biri olan "Milli iqtisadiyyatın və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" 11 sektordan ibarət 12 strateji yol xəritəsindən ibarətdir. Bu sənəd özündə üç dövrü əhatə edir. Birinci dövr 2020-ci ilə qədər olan dövrdür. Bu dövr iqtisadi inkişaf strategiyasını və eyni zamanda tədbirlər planı adlanır. İkinci dövr isə 2025-ci ilədək olan dövrdür ki, bu dövr orta dövr adlanır. Nəhayət üçüncü dövr 2025-ci ildən sornraki uzunmüddətli dövr üçün hədəf baxışından ibarət olan dövrdür. Strateji yol xəritəsində yanlız özündə inkişafnan bağlı məqsədləri deyil, eyni zamanda icrası vacib olan bütün məsələləri özündə əks elətdirir. Bu sənədin əsass tərkib hissəsində biri sayılan "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsidir". Bura da göstərildiyi kimi respublikamız 2003-dən 2015-ci ilə qədər iqtisadi artım tempinə görə dünya ölkələri arasında ön sıralarda olmuşdur. Uğurla aparılan siyasət nəticəsində əldə edilmiş gəlirlər

Nəticəsində infrastruktur sahələri təkmilləşdirilmiş, qeyr-neft sektoru xeyli inkişaf etdirilmiş, ölkənin sahib olduğu aktivlərin miqdarı artırılmış, ümumi daxili məhsulun artım tempi sürətləndirilmişdir. Strateji Yol Xəritəsində göstərilən müəyyən prioritetlər və hədəf nəticəsində ölkənin dayanıqlı inkişafının təmin edilməsində

xüsusi əhəmiyyət kəsb etmişdir.

## 2.3.Müasir dövrdə maliyyə siyasətinin xüsusiyyətləri və problemləri

Hər bir dövlətin maliyyə siyasəti tarixi şərait ,iqtisadi tərəqqi,siyasi , iqtisadi və sosial məqsədlərdən , milli adət-ənənədən asılıdır.

Maliyyə siyasətinin stimullaşdırılması, təkmilləşdirilməsi üçün aşağıda qeyd olunan amillər mütləq vacbdir:

- Sosial problemlərin həll olunması;
- Dövlət maliyyəsinin inkişaf etdirilməsi;
- Bank sahəsində fəaliyyətin stimullaşdırılması;
- Ölkənin və onun regionlarının maliyyə və iqtisadi cəhətdən müstəqilliyinin artırılması.

Hər bir dövlətin maliyyə siyasətini həyata keçirən hakimiyyət orqanı mövcuddur.Azərbaycan Respublikasının maliyyə siyasətini həyata keçirilməsi və onun tənzimlənməsi Maliyyə Nazirliyi tərəfindən olunur. Maliyyə Nazirliyi maliyyə siyasətinin idarə edilməsində ən əsas orqanlardan biri kimi çıxış edir. Ölkə Prezidentimizin verdiyi fərmana əsasən Azərbaycan Respublikasında fəaliyyət göstərən Maliyyə Nazirliyi maliyyə siyasətiynən bağlı bütün fəaliyyəti həyata keçirən və ölkəmizdə maliyyə siyasətinin idarə edilməsini təşkil edən orqandır. Bu Mərkəzi icra hakimiyyət orqanının həyata keçirdiyi vütün vəzifələr,hüquqlar Əsasnaməyə əsasən müəyyən edilir. Maliyyə Nazirliyi aşağıda qeyd olunmuş vəzifələri özündə birləşdirir.

- Ölkənin büdcəynən bağlı eyni zamanda vergi siyasətini, maliyyə siyasətini həyata keçirilməsi, həmçinin bu siyasətlərnən bağlı təkliflər hazırlanması;
- Ölkənin büdcə sisteminin layıhəsinin hazırlanması, eyni zamanda icrasının təşkili;
- Ölkəmizdə maliyyə sabitliyinin qorunması;

- Maliyyə bazarının inkişafı üçün müvafiq tədbirlərin görülməsi;

- Xarici ölkələrdən Azərbaycan Republikasının iqtisadiyyatına kreditlərin cəlb edilməsi, onların səmərəli istifadəsi üzrə uçotun təşkili və ödəniş mənbələrinin müəyyən edilməsi üzrə təkliflərin hazırlanması;

- Büdcə-vergi sistemi üzrə maliyyələşmə mexanizminin qeydiyyat və uçot qaydalarının daha da təkmilləşdirilməsi;

- İstər büdcə, istərsə də büdcədənkənar vəsaitlərin, xüsusilə də cəlb edilmiş xarici kreditlərin səmərəli istifadəsi üzrə və nəzarətin təşkili qaydalarının müəyyən edilməsi;

- Azərbaycan Respublikası ərazisində əyar nəzarətinin həyata keçirilməsi.

- Ölkənin sosial–iqtisadi vəziyyətini təhlil edir və buna uyğun olaraq büdcə mədaxillərinin artırılıması ilə bağlı təkliflər hazırlayır.

- Qiymət siyasətin müəyyənləşdirir, siğorta fəalliyyətinin inkişafı və təkminləşdirilməsi, pul-kredit siyasətinin əsas istiqamətlərininin müəyyənləşdirilməsi,qiymətli kağızlar bazarının inkişafı üzrə təkliflərin hazırlanmasında iştirak edir. ( Mustafayev F.F., 2008: s.45-123)

Azərbaycan Respublikası Vergilər Nazirliyi və ona tabe olan yerli vergi xidməti orqanlarının əsas vəzifələrinə vergilərin vaxtında və düzgün hesablanıb, büdcəyə vaxtlı vaxtında köçürülməsi üzrə nəzarətin təşkili, yerli vergi qanunvericiliyinə riayət olunması, ödəyicilər üzrə uçotun düzgün təşkili, vergi yoxlamalarının (səyyar və kameral) keçirilməsi, vergi üzrə faktiki büdcəyə daxilolmalar haqqında yerli xəzinə orqanlarına məlumatlandırılması daxildir.

Maliyyə siyasətinin tərkib hissələri aşağıdakılardır: ( Zeynalov V.Z., 2008: s.25)

- Vergi siyasəti;
- Büdcə siyasəti;
- Pul-kredit siyasəti;

- Investisiya siyasəti;
- Xarici ticarət və valyuta siyasəti;
- İnhisar siyasəti;
- Qiymət siyasəti;
- Gömrük siyasəti.

Büdcə xərclərinin səmərəliliyinin təmin edilməsi və onun təkmilləşdirilməsi, qiymətlərin səviyyəsi ilə xərclər arasında səmərəli nisbətin gözlənilməsi, büdcə xərclərinin sosial və investisiya yönümlülüyünün təmin edilməsi, aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi, vergi dərəcələrinin azaldılması, sahibkarlıq fəaliyyətinin inkişafı üçün maliyyə dəstəyinin artırılması, dövlət qiymətli kağızlar bazarının inkişafının təmin edilməsi və s. Azərbaycanın maliyyə siyasətinin əsasını təşkil edir. Maliyyə mexanizminin qurulması prosesində həyata keçirilən maliyyə siyasətinin idarə edilməsini təsəvvür etmək üçün onun funksiyalarına diqqət yetirmək lazımdır. Maliyyə sahəsindəki bütün fəaliyyətlər maliyyə mexanizmi vasitəsilə həyata keçirilir. Maliyyə resurslarının formaları, onların formalaşdırılması metodları, qanunvericilik norma və normativlərin sistemi və s. maliyyə mexanizminin əsas elementlərindən biridir. Maliyyə onun funksiyalarının düzgün təmin edilməsi nəticəsində idarə olunur. Buna görə də bu funksiyalara diqqət yetirmək lazımdır. İdarəetmənin funksiyalarına aşağıdakılardır:

- planlaşdırma;
- təşkiletmə;
- koordinasiya;
- stimullaşdırma ;
- nəzarət.

İdarəetmənin funksiyaları maliyyənin idarə edilməsində özünə məxsus məzmuna malik olur.

Planlaşdırma – dövlətin dayanıqlı və davamlı inkişafını təmin olunması üçün onun gələcəkdə gözlənilən gəlir və pul vəsaitlərinin xərclənməsi istiqamətlərinin perspektiv uçotudur. Maliyyə planlaşdırılmasının əsas məqsədi maliyyə göstəricilərinin miqdarını proqnozlaşdırmağa əsasən maliyyə resurlarının, kapitalının və ehtiyatların müəyyənləşdirilməsi və gələcəkdə resurslardan səmərəli istifadənin təmin olunmasıdır. Maliyyə planlaşdırılmasının vəzifələri bunlardır: İstehsal, investisiya və maliyyə fəaliyyətinin zəruri maliyyə resurslarının təmin olunması, səmərəli kapital qoyuluşu yollarının müəyyən olunması və ondan rasional istifadə səviyyəsinin qiymətləndirilməsi, pul vəsaitlərinin səmərəli şəkildə istifadəsi hesabına gəlirin çoxalması nəticəsində təsərrüffatdaxili ehtiyatların əmələ gəlməsi, büdcə, banklar və kontragenliklərlə maliyyə münasibətlərinin səmərəli şəkildə qurulması, səhmdarların və digər investorlarının maraqlarının gözlənilməsi,müəssisənin maliyyə vəziyyətinə,ödəniş və kredit qabiliyyətinə malik olmasına nəzarət. Maliyyə planlaşdırılması ölkənin iqtisadiyyatının planlaşdırılmasının tərkib hissəsi olaraq maliyyənin idarə edilməsində aparıcı və istiqamətləndirici rol oynayır. Maliyyə Planlaşdırılması maliyyə resurslarının bölgüsü üzrə forma və metodlara uyğun olan planlar əsasında maliyyə sisteminin müxtəlif həlqələrində həyata keçirilir. Hər bir ölkə üzrə maliyyə planlaşdırılmasının əsasını dövlət büdcəsi təşkil edir. Dövlət büdcəsi dövlətin maliyyə siyasətinin tənzimlənməsində və nəzarət edilməsində əsas alətlərindən biridir. Dövlətin maliyyə siyasətinin uğurla həyata keçirilməsi birbaşa olaraq dövlət büdcəsinin səmərəli təşkilindən başlayır. Beləki, dövlət büdcəsi dövlətin müvafiq dövrü əhatə edən gəlirləri, xərcləri və kredit planlarının məcmusundan ibarətdir. Dövlət büdcəsinin daha bir mühüm xüsusiyyəti də, maliyyə göstəricilərin planlaşdırılması zamanı dövlət büdcəsinin göstəricilərinin əsas götürülməsidir. Bu səbəbdən, biz qeyd edə bilərik ki, dövlət büdcəsinin proqnozlaşdırılması maliyyə proqnozlaşdırlmasında da mühüm yer tutur. Maliyyə proqnozlaşdırılması və ya maliyyə planlaması maliyyə sisteminin bütün mərhələlərində əsas idarəetmə mexanizmi kimi özünü göstərir. Beləki, maliyyə planlaması özündə büdcə üzrə

nəzərdə tutulan pul ayırmalarının mənbəyinin müəyyən edilməsi və xərclənməsinə nəzarət mexanizmini saxlayır. Habelə, sığorta, kredit və maliyyə-kredit sistemində də biz maliyyə planlamasına rast gəlirik.  Eyni zamanda maliyyə planlaşdırılmasının beş metodu vardır.

Sxem 4. Maliyyə Planlaşdırılmasının metodları




Mənbə: Mustafayev F.F., 2008: s.125

İqtisadi təhlil metodu - əvvəlcədən müəyyən edilmiş normalar əsasında təsərrüfat subyektlərinin maliyyə resurslarına eyni zamanda, onların mənbələrinə olan tələbat hesablanır. Bu normativlər dövlət tərəfindən vergi və rüsum tarifləri, hüquqi şəxs və ya sahibkar tərəfindən biznesin təşkil olunması qaydasının planlaşdırılması müəyyən oluna bilər.

Balans hesablama metodu - bu metod maliyyə vəsaitlərinə olan gələcək tələbatın təyin olunması üçün müəyyən bir müddətə balansın əsas maddələri üzrə vəsaitlərin daxil olunmasının və xərclənməsinin proqnozlaşdırılmasına əsaslanır.

Çoxvariantlı hesablaşma metodu - Müxtəlif qiymət növlərin arasında ən uyğununu seçmək üçün bu metoddan istifadə olunur.

Pul axını metodu - müəyyən bir vaxt ərzində təsərrüfat subyektinin hesablarına köçürülmüş vəsaitlərin, bütün qalıqların və xərclərin büdcələşdirilməsi ilə əlaqədardır.

İdarəetmənin funksiyalarından biri də maliyyə proqnozlaşdırılmasıdır. Maliyyə proqnozlaşdırılması zamanı əvvəlcədən istehsal subyektinin inkişaf dinamikası təhlil olunur , sonra isə maliyyə resurslarının həcminin və istifadə istiqamətlərinin yerləşdirilməsi müəyyənləşdirilir. Maliyyə proqnozlaşdırılması qısamüddətli, ortamüddəli və uzunmüddətli olmaqla üç növü vardır. Qısamüddətli bir il , ortamüddətli bir-üç il, uzunmüddətli isə üç ildən çox müddətə proqnozlaşdırılır.

Maliyyənin sisteminin bir digər funksiyasından biri də təşkiletmədir. İdarəetmənin funksiyalarıdan biri olan təşkiletmə funksiyası əsas məqsədi idarəetmə orqanları sisteminin inkişaf etdirilməsi, onların tərkibində olan qurumların, vəzifələrinin, eyni zamanda hüquqlarının müəyyənləşdirilməsi ilə şərtlənir.

Qeyri-səmərəli idarəçilik, proteksionizm, inhisarçılıq, gəlirlərin bərabər olmayan bölgüsü maliyyə siyasətin ən böyük problemlərindən biridir. Bu cür problemlər yüz milyonlarla insanın yaşam tərzi və rifah halında kəskin təsirini göstərmiş və bu problemlər qaldığı müddətcə öz təsirini göstərəcəkdir. Bu cür vəziyyət uzunmüddətli davam etdikdə, onun sosial nəticələri daha sərt olur. Bu gün dünya iqtisadiyyatında hakim olan böyük dövlətlər belə bu cür problemlərdən yaranan qlobal maliyyə böhranlarının qarşısını almaqda acizdirlər. Maliyyə siyasətinin düzgün aparılmaması,düzgün qərarların verilməsi, səmərəli idarə edilməməsi və tənzimlənməməsi bu gün hər kəsi narahat edən ən böyük problemlərdən biridir.2008-ci ilidə baş vermiş sonuncu qlobal maliyyə böhranın yaratdığı sosial iqtisadi vəziyyətlər də bu cür problemlərin hələ də davam etdiyini bəyan edir. Bu böhran yaranması iqtisadi sistemin mükəmməliyini yenidən şübhə altına alır və dünyanın yeni maliyyə arxitekturasının qurulmasına zəruri ehtiyacın yarandığına çağırış verir. Maliyyə siyasətində yaranan problemlərin başlıca səbəblərindən biri də maliyyə nəzarətinin düzgün aparılmamasıdır. Hər bir ölkədə sosial-iqtisadi inkişafın təmin

olunması üçün səmərəli nəzarət sisteminin yaradılması mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən Azərbaycanda hər zaman yaxşı nəzarət mexanizminin yaradılması,eyni zamanda ölkə ərazisində mövcud olan nəzarət sisteminin bazar iqtisadiyyatının xassələrinə uyğunlaşdırılması ölkənin əsas bir nömrəli hədəflərindən biri olmuş və olmaqdadır. Azərbaycan Respublikasının demokratik və müstəqil inkişafa nail olduqdan sonra ölkədə həyata keçirilən iqtisadi islahatlar, idarəetmə sisteminin inkişaf etdirilməsi, eyni zamanda nazirlik, komitə və digər hakimiyyət orqanlarında fəaliyyət göstərəm nəzarət-təftiş orqanlarının ləğv olunması, dövlət orqanlarına öz səlahiyyətləri çərçivəsindən çıxan yoxlama işlərinin aparılmasının qadağan olunması, bu sahədə və istiqamətdə həyata keçirilən başqa məqsədyönlü tədbirlər ölkəmizdə arzuolunan nəzarət sisteminə nail olmağa şərait yaratmışdır.

## FƏSİL 3. Müasir Dövrdə Azərbaycanda Davamlı İnkişafın Təmin Edilməsi Aspektində Maliyyə Siyasətinin Təkmilləşdirilməsinin Əsas İstiqamətləri

### 3.1.Büdcə-vergi siyasəti və onun təkmilləşdirilməsi perspektivləri

Büdcə-vergi siyasəti dövlətin gəlir və xərclərini müəyyən edən siyasətlərdən biridir. Büdcə-vergi siyasəti dövlətin inkişafını müəyyən edən əsas göstəricilərindən biridir. Bu siyasət hər bir dövlətin inkişafında əsas rol oynayır. Büdcə-vergi siyasətinin əsas hədəfi maliyyə nəzarətinin inkişaf elətdirmək, minimum yaşayış səviyyəsinə nail olmaq, dövlət büdcəsinin şəffaflığını təmin etmək, tərtibi və icarasını təkmilləşdirmək, qeyri-neft sektorunu inkişaf elətdirmək və kiçik və orta sahibkarlığa maliyyə sahəsində dəstəyin artırılmasında köməklik etməkdir. Bu məqsədlərə nail olmaq üçün hər bir dövlət çalışır ki, təkmilləşdirmə siyasətini uğurla həyata keçirsin. Əgər ölkəmiz təkmilləşdirmə siyasətidən istifadə etməsəydi və beynəlxalq təcrübəyə əsaslanmasaydı heç vaxt iqtisadi inkişafdan söz gedə bilməzdi. Bunu da qeyd etmək lazımdır ki, iqtisadi inkişafa nail olmaq üçün beynəlxalq təcrübəni nəzərə almaqnan yanaşı, eyni zamanda milli xüsusiyyətlərə də diqqət etmək lazımdır. Büdcə-vergi siyasətin istiqamətləri ölkənin inkişaf mərhələsinə uyğun olaraq dəyişir. Azərbaycan Respublikasnının müstəqilliyinin ilk illərində və keçid iqtisadiyyatı dövründə büdcə-vergi siyasətinin başlıca hədəfi ölkəni böhran vəziyyətindən çıxartmaq, vergi ödəyicilərinin sayını artırmaqla büdcə sistemini normal vəziyyətə gətirmək, davamlı inkişafa nail olmaq, ölkədə baş verən inflyasiyanı aradan qaldırmaqdır. Eyni zamanda inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edərək, büdcə-vergi sisteminin təkmilləşdirilməsini özünə başlıca məqsəd kimi seçməlidir. Bəzən ölkələr böhran vəziyyətindən çıxmaq üçün süni yollardan istifadəni daha üstün tuturlar, bu da bir çox hallarda problemlərin daha da dərinləşməsinin şahidi oluruq. Məsələr, bir çox ölkələr büdcə kəsrini aradan qaldırmaq üçün xarici ölkələrdən borc alır, bu da borcların daha da artmasına , inflyasiyanın yaranmasına şərait yaradır. Bu ən çox özünü uzunmüddətli perspekivdə göstərir. Ölkəmizi indiki dövrü ilə, müstəqilliyimizin ilk

dövlərini müqayisə etsək deyə bilərik ki, büdcə-vergi siyasətinin əsas istiqamətləri kəskin dərəcə dəyişmişdir. İndiki mərhələdə əsas istiqamət ölkədə sosial rifahın təmin olunması, qeyri istehsal sahələrinə daha çox önəm verilməsi və stimullaşdırılması,ölkəyə investisiyanın cəlb edilməsi və s. əsas istiqamətlərindən biridir. Bu məqsədlərə nail olmaq üçün isə Azərbaycan Respublikasının kifayət qədər insan resursuna və təbii ehtiyatlara malikdir. Ölkə kifayət qədər münbit torpaqlar, təbii ehtiyatlar, faydalı qazıntılarnan zəngindir. Bir söznən Azərbaycanın inkışafı üçün təbii potensialı imkan yaradır ki, bir çox kənd təsərrüfatı məhsulları ölkəmizdə istehsal olunsun. Bu baxımdan ölkənin istehsalına əsas iki faktor təsir edir ki, bunlar da münbit torpaq və iqlim şəraitidir. Məlum məsələdir ki, ölkəmizdə hər iki şərait var. Lakin hələ də ölkəmiz taxıl ehtiyacının böyük hissəsini Qazağıstandan aldığı ehtiyatlarnan təmin edir. Lakin, ölkəmizin münbit torpağı taxıl əkməyə şərait yaradır. Əgər istehsal sahələrinin genişləndirilməsinə sahib ola bilsək digər dövlətlərdən tabeliliyimiz azalar, iqtisadi inkişafı daha da sürətləndirə bilərik. Təkcə istehsal sahələri deyil eyni zamanda sənaye sahələrini də misal göstərmək olar. Sənaye cəhətdən ölkə kifayət qədər sənaye potensialına malikdir, lakin istifadə etmirik. Məsələn, Azərbaycan xam nefti xarici ölkələrə ucuz qiymətə satır. Halbuki neft emalı sənayesini inkişaf etdirsək, xarici ölkələrə emal edilmiş neft sata bilərik. Bununla da büdcəyə daxilolmaları artıra bilərik.Ölkəmizdə neft emalı sənayesinin geniş yayılmamasının səbəblərindən biri kimi xaricdən texnolojik asılılığı da misal göstərə bilərik. Texnoloji cəhətdən asılılığı azaltmaq üçün insan kapitalını təkmilləşdirmək lazımdır. İstehsal sahələrini inkişafına nail olmaq üçün müəyyən güzəştlər, stimullar yaradılmalıdır. Məsələn sahibkarların dövlət qeydiyyatını sadələşdirmək, onlar üçün stimul ola bilər. Eyni zamanda yeni müəssisələr yaradıla bilər. Bununla da işsizlik probleminin tamamilə aradan qalxmasına nail oluna bilər. Bunu da qeyd etmək lazımdır ki, bunlarının hamısının reallaşması üçün yaxşı formalaşmış büdcə sistemi olmalıdır. Azərbaycanın büdcə sisteminin formalaşmasında obyektiv səbəblər təsir edir. Obyektiv səbəblərin də çoxu qlobal xarakterə malikdir. Qeyd edilən nöqteyi-

nəzərdən istehsal sahəsində fəaliyyət göstərən qeyri hökümət şirkətlərinin vəziyəti qənaətbəxş sayılmır. Həm dövlət həm də qeyri-dövlət şirkətlərinin bir çox səbəblərdən maliyyə vəziyyətində çətinliklər mövcuddur.Bu səbəblərə aşağıdakıları nümunə göstərə bilərik:

1) İstehsal həcminin və əksər artım meyllərinin ixrac edilməyən və rentabelliyi aşağı olan məhsullarla bağlılığı;
2) Neft satışı üzrə dünya bazarında mövcud olan problemlərdən asılılığı;
3) Yüngül və yeyinti sənayesinin zəif inkişaf səviyyəsi;
4) Ölkəmizin sənayesinin inkişafında idxalın əhəmiyyətli yer tutması və idxal edilən malların bahalaşması;
5) Yerli məhsulların qiymət səviyyəsi və texniki baxımdan rəqabət qabiliyyətinin aşağı olması və bununla əlaqədar daxili və xarici bazarda rəqabət qabiliyyətinin aşağı olması;
6) Yüksək texnologiyaların tətbiq edildiyi sənaye sisteminin tam formalaşmaması;
7) Maşınqayırma və neft kimya sənayesinin kompleks şəkildə inkişafı və bu sahədə potensialın aşağı düşməsi və nəticədə qeyd edilən sahələrdə maliyyə vəziyyətinin çətinləşməsi və bununla əlaqədar kreditor borclarının artması;
8) Qeyd edilən amillərlə əlaqədar Respublikamızda əmtəə bazarının zəifləməsi və ixrac edilən əmtəə qrupunun məhdudlaşması. (Xankişiyev A., 2010: s.12-75)

Dövlətin büdcə və iqtisadiyyata təsiri prosesini başa düşmək üçün ilk öncə dövlətin tənzimləmə və nəzarət mexanizmlərini və onların hər bir müəssisə və şirkətə onların sosial məqsədlərinə təsərrüfatçılıq fəaliyyətinə təsiri səviyyəsini nəzərdən keçirmək lazımdır. Çünki dövlət tənzimlənməsi iqtisadi mənafelərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin nəzərdə tutmaqla yanaşı real həyatda onları eyni səviyyə və dərəcədə əks etdirməlidir.İqtisadiyyatın dövlət tənzimlənməsi nəticəsində müxtəlif müəssisə və firmalar öz struktur və fəaliyyət formasına görə müxtəlif formalarda qazanc əldə edirlər. İlkin olaraq dövlət mexanizmi vasitəsi ilə mövcud yaradılmış dəyəri yenidən bölüşdürülməsi həyata keçirilir.Buna misal olaraq müxtəlif firmalara

dövlət tərəfindən verilən dotasiyaları nümunə göstərmək olar.İkinci hala isə dövlət tərəfindən istehsalın stimullaşdırılması nəticəsində əldə edilən güzəştli gəlirləri aid etmək olar.İlkin variantda dövlət büdcəsi vasitəsi ilə maliyyə resurslarının bölüşdürülməsi həyata keçirilir.Firmalar eyni zamanda istehsal xərclərinin müəyyən hissəsinin dövlət tərəfindən maliyyələşdirilməsi hesabına da bir sıra üstünlüklər əldə edirlər.İkinci variantda isə müəssisə və təşkilatlar tənzimləmə mexanizmi vasitəsi ilə xeyli üstünlüklərə sahib olurlar.İlkin olaraq çətin tapılan xammal və materiallar bazarına həmin müəssisələrinin buraxılması, patent siyasəti ilə həyata keçirilir. Ona görə də dövlət bazarı üçün çalışan müəssisələrin maliyyə təsərüffat vəziyyəti daha əhəmiyyətli olur. Dövlətin vergi siyasətinin 3 mühim istiqamətini göstərmək olar:

- Büdcə gəlirləri;
- Büdcə xərcləri;
- Büdcə kəsri;

Büdcə gəlirləri üzrə siyasət büdcə daxilolmalarının formalaşmasına yönəldilmiş siyasətdir.Normal iqtisadi inkişaf şəraitinə malik olan hər bir dövlətdə əhalinin gəlir kütləsinin çoxalmasına müvafiq olaraq dövlətin gəlirləri də fasiləsiz şəkildə artmalıdır.Büdcə gəlirlərinə dövlət xususi olaraq diqqət etməlidir ki, bu nə ölkənin iqtisadi inkişafına, nə ölkə əhalisinin gəlirlərinə, nə də Elmi Texniki Tərəqqinin inkişafına mənfi təsir göstərsin. Əks halda ölkədə istehsal həmçinin istehlak mallarının məhdutlaşmasına gətirib çıxara bilər.Ümumiyyətlə ölkədə baş verən əmək məhsuldarlığının çatışmazlığı ,iqtisadi artımdakı məhdudiyyətlər dövlət gəlirlərinin kütləsindən çox aslıdır.Ölkənin gəlirləri müəyyən olunmuş qanunauyğunluğa əsasən baş verməlidir.Gəlirləri təmin edən amillərin müsbət həddə çatdığı zaman yığım fondu və gəlirin strukturu ilə gəlirin artımı arasında normal nisbət təmin olunur.Bu ən vacib qanunauyğunluqdan biridir.Ona görə ki, gəlir yaranmasına şərait yaradan əsas amillər ilə komponentlər arasındakı stabilliyi yaratmadan gəlirdəki artımı təmin etmək olmaz.Hətta əmək haqqının minimuma endirilməsi, şəxsi istehlakın azaldılması tədbirləri olunsa belə bu sahədə heç bir dönüş yarada bilməz.Beləliklə, qanuna

uğunluğa əsasən gəlir əmələ gətirən komponetlərin səmərəliliyinin azlığı və çoxluğu dövlətin gəlirlərinə mənfi müsbət təsirini göstərir. Dövlət gəlirlərinin idarə edilməsində aşağıdakı amillər mühim rol oynayır:

- əvvəlki illərə nəzərən ölkənin gəlirlərinin, ümumiyyətlə büdcə gəlirlərinin müxtəlif amillər hesabına artımı;
- milli gəlirdə və büdcə gəlirlərində əsas normaların müəyyənləşdirilməsi;
- dövlətin gəlirlərinin ümumi miqdarı ilə və onun müxtəlif elementlərinin artım müqayisəsi;
- faktiki gəlir nisbətlərinin əsas nisbətlərdən kənarlaşma miqdarı;
- həmin faktiki və əsas nisbətlərin büdcə gəlirlərində və Ümumi Daxili Məhsuldakı dinamikası və bununla bağlı kənarlaşmalar. ( Məmmədov Ə.C., 2013: (183-264)

Büdcə-vergi sistemində büdcə üzərindəki nəzarətin optimallaşdırılmasına, dövlət xərclərinin əsas istiqamətlərinin təyin edilməsinə diqqətli olmaq mütləq zəruriddir. Vergi sistemində elə tədbirlər görmək lazımdır ki, ümumi daxili məhsulun əsas tərkib hisəsi sayılan mənfəət və əlavə dəyər vergisi xalis sahibkarlıq gəlirləri ilə əlaqələndirilə bilinsin.

İqtisadi subyektlər üçün əlavə dəyər vergisini müstəqil bir vergi növü kimi baxmaq olmaz. Ümumiyyətlə çalışmaq lazımdır ki, bazar iqtisadiyyatının modelləri ilə büdcə-maliyyə sisteminin tənzimləyici mexanizmlərinə arasında uyğunluq olsun. Eyni zamanda vergi sistemi ilə mühasibat uçotu arasında uyğunluq yaradılmalıdır. Günümuzə nəzər salsaq görərik ki, vergi sistemi müəssisələrin fəaliyyəti haqqında hələ də düzgün informasiya vermir. Eyni zamanda bu sistem stimullaşdırıcı funksiyanın əvəzinə fiskal funksiyanı daha çox icra edir. Bunların başında duran əsas səbəb vergiyə cəlbetmə formalarının təkmilləşdirilməməsidir. Bucür problemləri yaradan səbəb aşağıdakılardır:

- qeyri-sabit vergiyə cəlbetmə mexanizminin olması;

- vergi sistemində olan güzəştlərin sistemliliyinin zəif olması;
- vergi ödənişlərinin yaranma mənbələrində bütövlüyün olmaması; (Novruzov N.A., İbrahimov E.Ə., 2012: 383-425)

Vergiyə cəlbetmə əsasən mənfəətnən əlaqələndirilsə də, maya dəyərinin səviyyəsi, satışın həcmi ümumi desək maliyyə fəaliyyətinin nəticəsi ilə sıx bağlıdır. Vergiyə eyni zamanda Əlavə Dəyər Vergisi və aksiz vergisi də öz təsirini göstərir. Hər ikisi vergi növü qiymətə daxil edilir və sonuncu kim istehlak edibsə onun tərəfindən ödənilir. Əlavə Dəyər Vergisi və aksizlər büdcə ilə hesablaşmalarda müəssisələrin kreditor borcunu artırır və müssisələr hesab edir ki, kreditor borclarının yəni açıq desək müəssisənin üzərinə düşən yükün ağırlığını müəyyən edərkən Əlavə Dəyər Vergisini və aksizləri ayrıca olaraq nəzərə alınmalıdır. Bununla da müəssisələrinin tədiyyə qabiliyyəti səviyyəsinin müəyyən edilməsində vacib olan debitor və kreditor borclarına olan faiz nisbəti ilə müəyyənləşdirmək lazımdır. Aşağıdakı amillər vergi yükünə təsir edən və maya dəyəri ilə bağlı olan amillərdir və maliyyə siyasətinə tam şəkildə öz təsirini göstərir.

- torpaq və suya görə haqq;
- yol fonduna görə ödənişlər;
- təqaüt fonduna ayırmalar;
- sosial siğortaya ayırmalar;
- əhalinin məşğulluq fonduna ayırmalar;
- tibbi siğorta fonduna ayırmalar.

Yuxarıda qeyd edilənlər maya dəyərinə təsir göstərir, onların bir hissəsi qiymətin əmələ gəlməsi, bir hissəsi isə mənfəətin azalması prosesi kimi çıxış edir. Burada eyni zamanda mənfəət və eyni zamanda ümümi mənfəət və həmçinin satışdan digər xərclər yəni ümumi mənfəətin azalmasına səbəb olan amillər də nəzərə alınmalıdır. Ona görə ki, bu amillər satışın rentabelliyini və həmçinin məhsulu istehsalını müəyyən etməyə imkan yaradır. Yekunda vergi yükünun miqdarını tapmaq üçün vergi məbləğini xalis

mənfəətə olan nisbəti kimi müəyyən etmək lazımdır. Ayrılıqda hər bir vergi növünün xususi çəkisini aşkar etmək lazımdır, ona görə ki, hər bir vergi növünün özünəməxsus ağırlıq dərəcəsi eyni zamanda meyarı var. Burada düşündürücü bir məqam yaranır: Müəssisələrin maliyyə fəaliyyəti ilə bağlı nəticələri ilə istehsal xərcləri ilə bağlı olar vergi qrupları arasında uyğunsuzluq yaranır. Yəni, müəssisənin istehsal xərcləri nə qədər çox olarsa həmin müəssisənin sərəncamında qalan mənfəəti də uyğun olaraq azalmış olar və müəssisə vergi daha az ödəmiş olur. Ümumi halda desək bucür hal yarandıqda həm müəssisə və həm də dövlət büdcəsi uduzmuş olur. Büdcə sistemi az vergi ilə təmin olunur. Eyni zamanda bəzi müəssisələr qondarma xərclərini həddindən artıq şişirdərək qazanc əldə etmiş olurlar. Dövlət büdcəsini təmin edən gəlirlərin stimullaşdırılması üçün aşağıdakı məsələləri qeyd etmək istərdim:

- Bütün istehsal müəssisələr yəni mülkiyyət formasından asılı olmayaraq hər bir müəssisəyə sahibkarlıq fəaliyyətinin inkişafını təmin etmək üçün vergi güzəştləri mütləq şəkildə olmalıdır;
- Xarici və eyni zamanda yerli sahibkarlara istehsal fəaliyyətlərindən əldə etdikləri mənfəəti sərbəst istifadə edə bilməsi üçün şərait yaradılmalıdır və bu onlar üçün fəaliyyətinin üzunmüddətli olması üçün ən yaxşı stimul olar;
- Respublikamızın ərazisində xammal şəklində yox, hazır məhsul şəklində olan ixrac üçün nəzərdə tutulmuş məhsulların bazar standartlarına uyğun şəkildə satışından əldə olunan mənfəətin vergiyə cəlb olunmasında stimullaşdırıcı metodlar tədbiq olunmalıdır;
- Müəssisələrin investisiya vergi kreditindən istifadə edə bilməsi üçün vergi orqanlarının nəzarəti və eyni zamanda köməy mütləq şəkildə lazımdır;
- Respublika ərazisində qəbzlərdən və həmçinin nəzarət-kassa aparatlarından istifadəninin səmərəliliyini xeyli artırmaq üçün, əhali tərəfindən göstərilmiş xidmət və ya alınmış mallara görə verilmiş qəbzlərin və yaxud çeklər əhali tərəfindən saxlanılaraq növbəti ayın 10-na dək həmin çeklərin və qəbzlərin

həmin vergi orqanina təqdim edilərək, yekun rəqəmin 5% miqdarında görülmüş xidmətin və həmçinin alınmış malın dəyəri ona qaytarılmalıdır;

- Respublika ərazisinə idxal olunan mallara yüksək vergi dərəcələrinin tədbiq olunması da dövlət büdcəsini təmin edən gəlirlərin stimullaşdırılmasına müsbət təsir göstərə bilər.

Bildiyimiz kimi büdcə gəlirlərinin və büdcə xərclərinin idarə edilməsi bir-biri ilə tam şəkildə əlaqəlidir. Bu səbəbdən, büdcə gəlilərinin həcmi hər zaman büdcə xərclərinin həcminə bərabər olmalıdır. Digər bir tərəfdən baxsaq dövlə  xərclərinin azaldılması heç də uzunmüddətli dövr üçün yaxşı bir hal deyil, bu bir çox  problemlər yarada bilər. Bu səbəbdən büdcə xərclərini çalışmaq lazımdır ki, optimal şəkildə istifadəsi təmin olunsun və bununla da dövlətin bütövlükdə funksiyaları az vəsaitlə reallaşdırılmasına nail olunsun.

Azərbaycan Respublikasının dövlət büdcəsi xərclərinin əsasən iki istiqamətdə büdcə siyasəti aparılır. Bunlar aşağıdakılardır:

- Sosial yönümlü;
- İnvestisiya yönümlü.

Ölkəmizdə büdcə xərclərinin böyük hissəsi sosial müdafiə, səhiyyə və eyni zamanda təhsil xərclərinə yönəldilir. Bu xərclər məlum məsələdir ki, iqtisadiyyatın bütün sahələrinə öz təsirini göstərir. Ölkəmizdə büdcə-vergi sisteminin təkmilləşdirilməsinə istiqamətində bir çox tədbirlər görülməyinə baxmayaraq hələ də bəzi problemlər hələ də qalmaqda davam edir. Bu problemlərin həll olunması üçün büdcə-vergi siyasətini həyata keçirməmişdən əvvəl dünya təcrübəsindən əlavə eyni zamanda milli və regional prinsiplərə də əsaslanmaq lazımdır.

Azərbaycanın iqtisadi baxımdan potensialı kifayət qədər büyükdür. Amma büdcədə artım tempinin yüksək olmasına baxmayaraq, ölkənin iqtisadi cəhətdən potensialı hesab edilir ki, mövcud olan büdcə reallıqlarına uyğunlaşmır. Ölkə ərazisində büdcə-vergi siyasətinin başlıca hədəfi neftdən aslı olmadan büdcə sistemini inkişaf etdirmək,

qeyri-neft sektorundan gələn verginin miqdarını artırmaqdır. Büdcə-vergi sistemini inkişafını təmin etmək üçün, onu təkmilləşdirmək üçün, aşağıda qeyd olunan tədbirlərin reallaşdırılması daha məqsədə uyğundur:

- vergi güzəştlərinin iqtisadiyyatın ütünlük təşkil edən sahələrinə yönləndirilməsi;

- sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi yollarının araşdırılması;

- məcburi şəkildə ödənilən dövlət sosial siğorta haqqlarının müəyyən qədər dərəcəsinin azaldılması;

- dövlət büdcəsindən ayrılmış vəsaitlərin təyinat istiqamətində icrasına nəzarəti gücləndirmək;

- büdcənin icra olunan zaman tam şəkildə şəffaflığa nail olmaq;

- vergi ödəyicilərinin əsas fəaliyyətlərində təkmilləşdirici tədbirlərin görülməsi;

- xərclərin daha çox investisiya xarakterli olmağı;

- büdcəyə daxil olan gəlirlərin artırılmasının təmin etmək;

- büdcə vəsaitlərinin istifadəsi üzrə nəzarətin stimullaşdırılması, xəzinəyə nəzarəti daha da artırılması;

-sahibkarlığın inkişaf etdirilməsi üçün büdcə vasitəsi ilə proqramların maliyyələşməsində vəsait qoyuluşunun artırılması;

- dövlət büdcəsində yaranan kəsiri azaldılmasının sürətləndirilməsi siyasətini yürütmək və elə etmək lazımdır ki, iqtisadi inkişafın təkmilləşdirilməsinə xeyli təsir etsin;

- Büdcə kəsrini elə mənbələr hesabına maliyyələşdirmək lazımdır, həmin mənbələr inflyasiya mənbələri olmasın.

### 3.2. Bank-kredit siyasəti və onun təkmilləşdirilməsi yolları

Azərbaycan Respublikasının bank sistemində olan çatışmazlıqların ölkə

iqtisadiyyatına bir neçə il əvvəl vurduğu ağır nəticələr səbəbindən bank-kredit sisteminin təkmilləşdirilməsi əsas məsələyə çevrilmişdir.

Bank sistemində baş verən bu proseslər Mərkəzi bank tərəfindən aparılan pul-kredit siyasətinin nəticəsidir. Bu səbəbdən ilk öncə Mərkəzi bankın apardığı siyasəti təkmilləşdirmək lazımdır.Azərbaycan Respublikasının Mərkəzi bankında baş verən çatışmazlıqlar və nöqsanlar ölkənin sosial-iqtisadi inkişafında ləngimələrə səbəb olmuşdur. Digər neqativ səbəbləri də nəzərə alsaq ölkə əhalisinin və müəssisələrin malik olduğu pul vəsaitləri dövriyyədə toplana bilmir və bunun nəticəsində əhalinin və dövlətin bu və ya digər ehtiyacları tənzimlənə bilmir. Ölkədə kapital bazarının və normal kredit bazarının formalaşmaması əhalinin banklara olan inamını xeyli itirməyinə səbəb olmuşdur. Bu səbəbdən digər kredit təşkilatlarının,bankların eyni zamanda Mərkəzi Bankın iş prosesinin təkmilləşdirilməsi ilə bağlı ciddi addımlar atılmalı, eyni zamanda onların əsas məqsədi ölkənin sosial-iqtisadi inkişlafını ləngidən problemlərin aradan qaldırılmasına yönəldilməlidir. Mərkəzi Bankın işininin təkmilləşdirilməsi yolları araşdırılmalıdır.

İlk öncə kommersiya banklarının müstəqilliyi artırılmalıdır, lakin bu yanlız ciddi nəzarət altında edilməlidir. Bu cür sistem artıq bir çox inkişaf etmiş ölkələrdə, eyni zamanda inkişafda olan ölkələrdə yaradılmışdır, eyni zamanda digər banklara olan nəzarət də hökümət tərəfindən həyata keçirilir.Azərbaycan Respublikasında bank sisteminə hökümət tərəfindən yetərincə nəzarət keçirilmir. Bu səbəbdən Mərkəzi Banka və digər banklara ciddi nəzarət sistemi yaradılmalıdır, lakin bu nəzarət sistemi müəyyən hədd daxilində olmalıdır.

Mərkəzi Bankın eyni zamanda əsas problemlərindən biri də əmanət sisteminin zəif qurulmasıdır.Ölkədə əmanət sistemi düzgün qurulmadan bank-kredit münasibətlərində irəliləyişdən söhbət belə gedə bilməz. Ona görə ki, banklar pul vəsaitlərinə olan tələbin böyük hissəsini əmanətlər hesabına əldə edirlər. Bu səbəbdən ölkə əhalisininin inamını qazanmaq üçün əmanətlərə siğorta sistemi təşkil etməlidir.

Ehtiyat normaları üzrə Mərkəzi Bank tərəfindən banklarda olan əmanətlərin toplanmasında, eyni zamanda kredit bazarlarının inkişafında və hətta bazar əməliyyatlarında da ciddi problemlər və çatışmazlıqlar vardır.Ehtiyyat fondlarının ən əsas məqsəd bazarda olan artıq pul kütləsini toplayaraq pul təklifi ilə əmtəə təklifi arasındakı tarazlığı yaratmaqdır.Bir çox ölkələrdə ehtiyyat normalarına yığılan pul kütləsinin istifadəsinə qadağa qoyulmuşdur.Bu cür qadağanın Azərbaycan Respublikasının Mərkəzi Bankında da əks olunması mütləqdir.

Eyni zamanda qiymətli kağızlar bazarının Mərkəzi Bankın təkmilləşdirilməsində xüsusi rolu vardır.Mərkəzi bankın əsas fəaliyyət növü olan açıq bazar əməliyyatlarının zəifliyi məhz qiymətli kağızlar bazarının formalaşmasından asılıdır. Açıq bazar əməliyyatlarına müsbət təsir göstərmək üçün ilk növbədə qiymətli kağızlar bazarının hüquqi bazasını yaratmaq , sonra isə bu bazarı formalaşdırmaq lazımdır.

Mərkəzi Bankın fəaliyyət növlərindən biri də ölkənin qızıl və valyuta ehtiyyatlarının idarə olunmasıdır.Bu fəaliyyət növündə də bir çox nöqsanlar vardır. Qızıl ehtiyatları vasitəsi ilə faiz əldə etmək olar . Bu ehtiyatları xarici banklara depozit kimi yatırıb gəlir və əlavə faiz əldə etmək mümkündür. Eyni zamanda bunun sayəsində xarici ölkələrdən kredit alınması üçün zəmanət kimi çıxış etmək olar.

Respublikamızda bank sisteminin stimullaşdırılması üzrə tədbilərin kifayət qədər görülməməsi və xarici bankların rəqabətsiz fəaliyyətinə imkan yaradan tam lisenziyların verilməsi Mərkəzi Bankın fəaliyyətinin mühim çatışmazlığından biridir. Kommersiya banklarının ilkin olaraq kiçik nizamnamə fondu ilə yaradılmasına baxmayaraq Mərkəzi Bank nizamnamə fondunun artırılmasına dair qərar çıxartmışdır. Başqa sözlə desək banklar öz nizamnamə fondlarını artırmalıdırlar. Bildiyimiz kimi həmin məbləği formalaşdırmaq xarici banklar üçün o qədər də çətin deyil. Qeyd edilənləri nəzərə alaraq respublikamızın bank sisteminə bankların yaradılmasında xarici kapitalın payı artmaqdadır. Xarici investisiyanın cəlb edilməsi ölkə iqtisadiyyatının inkişafında çox əhəmyyətli rol oynayır, lakin respublikamızda daxili

bank sisteminin inkişafını və formalaşdırılmasını təmin etmədən xarici ölkə banklarının respublikamızda fəaliyyətinə imkan yaradılması mənfi nəticələrə gətirib çıxarda bilər. Qeyd edilənləri nəzərə alaraq bu sahədə proteksionizm siyasətinin həyata keçirilməsi labüddür. Başqa sözlə desək ölkəmizin bank sisteminin inkişafı və formalaşması istiqamətində himayədarlıq və dəstəyə ehtiyyac vardır. Bütün bunlar Mərkəzi Bankımızın fəaliyyətinin təkmilləşdirilməsi üçün əhəmiyyətlidir. Bank sisteminin fəaliyyətini təkmilləşdirmək üçün kommersiya banklarının fəaliyyətinin təkmilləşdirmək üzrə də tədbirlər həyata keçirilməlidir. Bildiyimiz kimi kommersiya banklarının fəaliyyətinə nəzarət Mərkəzi Bank tərəfindən icra edilir. Bu baxımdan banklar arası rəqabətin gücləndirilməsi maliyyə bazarının gedişatı və bank sistemini inteqrasiyası istiqamətində Mərkəzi Bank tərəfindən müvafiq tədbirlər görülməlidir. Buna görə də Mərkəzi Bank müvafiq daxili nəzarət sistemini formalaşdırmalıdır.

Kredit təşkilatlarının fəaliyyətinin tənzimlənməsi üzrə daha mükəmməl üsullardan istifadə edərək onların işikin keyfiyyətini yüksəldilməsinə nail olmaq mümkündür. Bu baxımdan sözü gedən təşkilatların lisenziyalaşdırılması qaydalarının təkmilləşdirilməsi üzrə müvafiq addımlar atılmalıdır. Xarici kapitalla kommersiya banklarının apardığı mənfi nəticələrinin azaldılması və risk dərəcəsinin aşağı salınması məqsədi ilə bank sisteminə xarici kapitalın daxil olunması mexanizmini təkmilləşdirmək lazımdır.

Kreditorların maraqlarının qorunması üzrə də Mərkəzi Bank tərəfindən müvafiq qanunları hazırlamaq lazımdır.

Son illər ərzində ölkəmizə daxil olan gəlirlərin səmərəli şəkildə bölgüsünə şərait yaranmışdır. Neft gəlirlərin mənfi təsirləri Mərkəzi Bank tərəfindən qarşısı alınmış, qiymət artımı üzərində tam nəzarəti həyata keçirmişdir və bununla da qiymət səviyyəsinin qorunub saxlanılmasına nail olmuşdur. Aparılan uğurlu siyasət nəticəsində investiya mühiti yaxşılaşdırılmış, davamlı iqtisadi inkişafa olan inamın artmasına səbəb olmuşdur.

Eyni zamanda Mərkəzi Bankın yürütdüyü məzənnə siyasəti nəticəsində neft gəlirlərinin valyuta ehtiyatları üzərində yaratdığı mənfi təsirlərindən qoruya bilmişdir

## Nəticə və təkliflər

Aparılan araşdırmalarla aşağıdakı məsələlərə gəlinmişdir. Davamlı inkişafın təmin edilməsi müasir dövrdə iqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr qarşısında dayanan strateji vəzifədir. Davaml inkişafın təmin edilməsi iqtisadi, sosial, ekoloji və digər sahələrdə əldə edilən uğurların davamı kimi qitymətləndirilməlidir. Davamlı inkişafın mahiyyəti haqqında ümumiləşmiş fikirə görə indiki mövcud iqtisadi resurslardan elə istifadə edilməlidir ki, o ölkənin yüksək iqtisadi inkişafını təmin etsin, perspektivdə iqtisadi inkişaf üçün möhkəm zəmin yaratsın.

Davamlı inkişafın təmin edilməsində dövlətin iqtisadi siyasətinin xüsusiyyətləri, mexanizmləri, amilləri mühim rol oynayır. Bu baxımdan davamlı inkişafa keçidin təmin edilməsində maliyyə siyasətinin xüsusi əhəmiyyəti vardır. Bu da təsadüfü deyildir. Belə ki, maliyyə siyasəti çərçivəsində həyata keçirilən büdcə vergi siyasəti, iqtisadiyyata cəlb edilmiş daxili və xarici investisiyalar, dövlət borcunun səmərəli idarə edilməsi və bu kimi digər məsələlər bazar iqtisadiyyatı şəraitində xüsusi əhəmiyyət daşıyır.

Araşdırmaıar göstərir ki, son 15 il ərzində Azərbaycan iqtisadiyyatının , o cümlədən regionlarının sosial-iqtisadi inkişafı sahəsində əldə edilmiş yüksək uğurlar ölkəmizin davamlı və dayanıqlı inkişafa keçidin təmin etmək üçün məhkəm baza yaratmışdır

Ölkəmizin, eyni zamanda regionlarımızın sosial-iqtisadi inkişafı ilə bağlı mühim addımlar atılmasına baxmayaraq, bu istiqamətdə bəzi problemlər hələ də öz həllini tapmayıb. Ölkəmizdə və regionlarımızda İnformasiya və Kommunikasiya Texnologiyalarının tədbiqi, siğorta, bank və s. ölkə üçün mühim əhəmiyyət kəsb edən sahələrində təkmilləşdirilmə işlərinin aparılması vacibdir. Əsasən də, sahibkarların İnformasiya və Kommunikasiya Texnologiyalarından istifadə səviyyəsinin optimallaşdırılması üçün müəyyən treninq,kurs və s. tədbirlərinin keçirilməsi daha məqsədəuyğun olardı. Ölkənin maliyyəynən bağlı bütün resursları onun stabil inkişafının və eyni zamanda davamlılığının əsas təkanverici qüvvəsindən biridir. Bu

səbəbdən ayrı-ayrı region üzrə hər bir maliyyə resurslarının yaranma mənbələrinin aşkarlanması və həmin mənbələrin təkmilləşdirilməsi yönündə mühim addımlar atılmalıdır. Bu mənbələrə daha çox vəsait cəlb edərək maliyyə inkanlarının genişləndirilməsi daha məqsədəuyğun olardı. Bunun nəticəsində səmərəli şəkildə resurslardan istifadə olunar, eyni zamanda regionlara qoyulan vəsaitin həcmini xeyli artıra bilər.

Ölkənin və eyni zamanda regionların inkişafın əsas təminatcısından biri də yerli büdcələrdir. Büdcənin inkişaf etdirilməsi ölkənin və regionun davamlı inkişafına müsbət təsir edir. Bu səbəbdən vergi borcları hesabına büdcənin gücləndirilməsi səmərəli hesab edilir.

Bildiyimiz kimi, maliyyə siyasətinin tərkib hissəsindən biri investisiya siyasətidir. Ölkənin iqtisadi inkişafı üçün lazımı investisiya qoyuluşu etmədən davamlı inkişafa nail olmaq mümkün deyil. Tədqiqatlardan da məlumdur ki, investisiya ilə bağlı olan siyasətin əsas hədəfi bu siyasət üzrə lazım olan maliyyə resurslarının cəlb edilməsi, investisiya siyasətinin genişlənməsinə mane olan problemlərin aradan qaldırılması və bu sahəyə qoyulan vəsaitin səmərəliliyinin yüksəldilməsindən ibarətdir. Bu siyasətnən bağlı olan əsas vəzifələrdən biri də dövlət investisiyalının dövlət hesabına maliyyələşdirilməsi və eyni zamanda investorlar üçün əlverişli şəraitin yaradılmasından ibarətdir. Ona görə də aşağıda qeyd etdiyim istiqamətlər investisiya siyasətinin genişlənməsinə müsbət təsirini göstərə bilər:

- İnvestisiya siyasətinin maliyyələşməsində üstünlük təşkil edən sahələrin müəyyənləşdirilməsi;
- Bu sahə üzrə elmi yeniliklərin tədbiq olunmasına;
- İnvestisiya mənbələrini inkişaf etdirmək üçün müəyyən stimullaşdırıcı addımların atılmasına;
- Müəssisələrin əldə etdiyi gəlirlərin müxtəlif sahələrə investisiya etmə imkanlarının genişləndirilməsinə və s.

İnkişaf etmiş ölkələrin inkişaf təcrübəsinə baxsaq deyə biləri ki, stabil inkişafa, davamlığa nail olmağın ən vacib yollardın biri də iqtisadi imkanlardan səmərəli və tam şəkildə istifadə etməkdir. Bu səbəbdən investisiya cəlbediciliyinin artırılması əsas tələblərdən biridir.

Araşdırmalar göstərir ki, davamlı iqtisadi və sosial inkişafa aşağıda qeyd olunmuş maliyyə siyasətinin istiqamətlərdən istifadə edərək nail olmaq olar:

- Ölkənin iqtisadi inkişafın mühim tərkib hissəsi olan maliyyə siyasəti, istehsalın bütövlükdə inkişafını mütləq şəkildə təmin etməlidir, yəni xammal ehtiyatlarından, iqtisadi imkanlardan irəli gələn sahələrin inkişafı əsas prioritet kimi qəbul olunmalıdır;
- Maliyyə siyasətinin vəzifəsi əmək bölgüsünün prinsiplərindən istifadə edərək, müqayisəli üstünlük nəzəriyyəsinin tövsiyyələrini bu siyasətdə nəzərə almalıdır və s.

Ölkənin davamlı-iqtisadi inkişafında vergi siyasətinin rolu da aparılan araşdırmalar nəticəsində sübut edilir. Aparılan düzgün vergi siyasəti büdcə sisteminin formalaşmasında müsbət rol oynayır. Tədqiqatlardan da görünür ki, əgər vergi sahəsində sahibkarlara əlverişli, eyni zamanda müxtəlif istehsal sahələrinə stimullaşdırıcı tədbirlər görülməsə bu bizə davamlı-iqtisadi inkişafa nail olmağda çətinlik yaradacaq. Bu səbəbdən bu tədbirlərin görülməsi mühim əhəmiyyət kəsb edir.

## İstifadə edilmiş ədəbiyyat

### Azərbaycan dilində


1. Dövlət Statistika Komitəsinin illik məcmuəsi - 2012-2017.
2. Ələkbərov U. K. (2017), " Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları" (Monoqrafiya), Bakı, "Təhsil". – 176 səh.
3. Əzizova G. (2012), "Dövlətin investisiya-innovasiya siyasəti" (monoqrafiya), Bakı, "İqtisad Universiteti nəşriyyatı". – 212 səh.
4. Hüseynov S. Y. (2003), "Davamlı insan inkişafının strateji istiqamətləri" (Monoqrafiya), Bakı, "Adiloğlu". – 264 səh
5. Xankişiyev A. (2010), "Büdcə-vergi siyasəti" (monoqrafiya), Bakı, "MBM". – 84 səh.
6. Xankişiyev B. (2002), " Büdcə prosesi və büdcə təsnifatı" (monoqrafiya), Bakı, "Turan". - 67
7. İsmayılova A.A. (2008), "Azərbaycan Respublikasında bələdiyyələrin formalaşmasının sosial-iqtisadi problemləri" , Bakı, "Elm". – 250 səh
8. Kəlbiyev Y.A. (2005), "Fiskal Siyasət və Milli İqtisadiyyatın Tənzimlənməsi Problemləri" (monoqrafiya), - 468 səh.
9. Kərimov C.H., Kərimova T.H. (2013) , " Beynəlxalq Münasibətlər və Xarici Siyasət" (monoqrafiya), Bakı, "ADPU nəşriyyatı". - 341 səh.
10. Musayev A.F. (2004), "Vergi Siyasətinin İqtisadi Problemləri" (monoqrafiya), Bakı, "Elm". – 792 səh.
11. Mustafayev F.F. (2008), "Keçid iqtisadiyyatında dövlət tənzimlənməsinin makroiqtisadi aspektləri" (monoqrafiya), Bakı, "Elm". – 540 səh.

12. Məmmədov Ə. C. (2013), “Vergi və investisiya mühiti” (Monoqrafiya), Bakı, “Elm”. – 376 səh.

13. Məmmədov Z. F. (2013), “Bank fəaliyyətinin əsasları”, Bakı, “Azərnəşr”. – 480 səh.

14. Məmmədov Z. F., Zeynalov V.Z. (2007) “Maliyyə, pul tədavülü, kredit” Bakı, “Azərnəşr” – 400 səh.

15. Novruzov N.A., İbrahimov E.Ə. (2012), “Büdcə sistemi” (monoqrafiya), Bakı, “Elm”. – 472 səh.

16. Rzayev İ.M.(2010), “Azərbaycan Respublikasında Regionların Davamlı Sosial-İqtisadi inkisafı” (monoqrafiya), Bakı, “Elm”. – 468 səh.

17. Şəkərəliyev A. Ş. (2009), “ Dövlətin iqtisadi siyasəti”, Bakı, “İqtisad Universiteti nəşriyyatı”. – 416 səh.

18. Zeynalov V.Z (2008), “Maliyyənin əsasları” (monoqrafiya), Bakı, “Apostrof". – 432 səh.

**Rus dilində**

1. Большаков С.В. (2002), “Финансовая политика государства и предприяти”, Москва, “Книжный мир”. – 210 səh.
2. Теплова Т.В. (1998), “Финансовые решения: стратегия и тактика: учебное пособие”, Москва, “ИЧП “ – 435 səh.

**İnternet saytları**

1. www.imf.org
2. www.worldbank.org

3. www.maliyye.gov.az

4. www.economy.gov.az

5. www.customs.az

6. www.oilfund.az

7. www.nba.az

8. www.prezident.az

9. www.meclis.gov.az

10. www.stat.gov.az

11. www.azerbaijan-news.az

12. www.iqtisadiislahatlar.org.az

**Cədvəllərin siyahısı**

Cədvəl 1. Maliyyə sisteminin təsviri ....................................................................29

Cədvəl 2. Azərbaycan Respublikasının maliyyə sistemi...........................................30

Cədvəl 3. Dövlət və Bələdiyyə maliyyə sisteminin idarəetmə strukturu....................33

Cədvəl 4. Maliyyə planlaşdırılmasının metodları......................................................47

**Şəkillərin siyahısı**

Şəkil 1. Neft gəlirlərinə və eyni zamanda cari hesab balansına təsir edən neft qiymətləri..........................................................................................................................39